Günəş Şərqdən doğur!

№ 33 (5314), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 20 fevral 2021-ci il (şənbə)



## Daha 193 nəfər yoluxub

Koronavirusdan 3 nəfər vəfat edib, 201 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 193 yeni yoluxma faktı qeydə alınıb, 201 nəfər müalicə olunaraq sağalıb.

(Səh.12)

## Ətin ucuzlaşması mümkün deyildi

Çünki bütün örüş yerləri pambıq sahələrinə çevrilib, yem bazası zəifləyib



**Koronavirus pandemiyası ətin qiymətinə də təsir edib.** 2020-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə əsasən, mal əti satışı ƏDV-dən azad edilib.

(Səh.3)

## Günün içindən...



### "Sanki Ağdamda, Füzulidə atom bombası partlayıb"

İqor Korotçenko Qarabağa ziyarətinin təəssüratlarını jurnalistlərlə bölüşüb

**"Adamda elə təəssürat yaranır ki, elə bil Ağdamda, Füzulidə atom bombası partlayıb".**

Bunu Rusiyanın "Milli Müdafiə" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko Azərbaycanın işğaldan azad olunmuş torpaqlara ziyarətinin təəssüratlarını jurnalistlərlə bölüşərkən deyib.

(səh.2)

### İşlər ağır gedir, vaxt aparır



Ermənistan minalanmış ərazilərin xəritəsini mütləq bizə verməlidir

(səh.6)

# 100-dən artıq müraciətə baxıldı



## Əfv Komissiyasının növbəti iclası keçirilib

**Azərbaycan Prezidenti yanında Əfv məsələləri Komissiyasının növbəti iclası keçirilib.** Bu barədə komissiyanın üzvü Rəşad Məcid məlumat verib. O bildirib ki, komissiya tam tərkibdə olub...

(səh.2)

## "İnsanı idarə edən ağıldır"

**Ağdamlı Səmayə nənə: "10 dənə diplomun olsun, ağlın yoxdursa, faydasızdır"**

(səh.9)





## Sənin Allahına qurban olum, qəhrəman..!

Vüsalı general Polad Həşimov da çox istəyirdi, ad günündə zəng etmişdi

(səh.7)



## "Müharibə ehtimalını bizə 10-15 gün əvvəl demişdilər"

Vətən savaşı qəhrəmanı, Nüsrət Kəsəmənlinin nəvəsi son günə qədər döyüşüb

(səh.7)

### ✓ Bakı şagirdlərinin 85 faizə yaxını əyani dərslərə gəlir

Sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur

(səh.2)

### ✓ Şəhid hərbçimiz Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub

(səh.3)

### ✓ Yağış suyu "Azərsu"nun əhaliyə verdiyi sudan təmiz olacaq

(səh.4)

### ✓ Bakıda bağçalara uşaq qəbulu dayandırılıb

Epidemioloji vəziyyətdən asılı olaraq məsələyə baxılacaq

(səh.12)

# 100-dən artıq müraciətə baxıldı

## Əfv Komissiyasının növbəti iclası keçirilib

**Azərbaycan Prezidenti yanında Əfv məsələləri Komissiyasının növbəti iclası keçirilib. Bu barədə komissiyanın üzvü Rəşad Məcid məlumat verib. O bildirib ki, komissiya tam tərkibdə olub:**



"Bundan əlavə, iclasda Baş Prokuror, Ali Məhkəmənin sədri və Ombsudman da iştirak edib. Komissiyanın işi məhsuldar oldu. 100-dən artıq müraciətə baxıldı. Bu müraciətlər əsasən əcnəbilər və hərbi qulluqçularla bağlı müraciətlər idi. Hər müraciət ətrafında xeyli müzakirələr aparıldı. Əvvələr komissiyada Ali Məhkəmənin və Baş Prokurorluğun məhkumlarla bağlı rəyi olurdusa, indi artıq Prezident Admirstrasiyasının şöbələrinin və digər hüquq-mühafizə orqanlarının rəyi də bildirilib. Bu baxımdan hər bir müraciətə ətraflı yanaşmaq, eyni zamanda komissiyanın hər bir üzvünün fikrini öyrənmək baxımından münbit bir şərait yaranıb. Komissiya bu templə işləsə, Novruz bayramına qədər bütün hazır müraciətlərə baxılması mümkün olacaq. Tam siyahı ölkə Prezidentinə təqdim olunacaq".

İclasda Baş Prokuror Kamran Əliyev iştirak edərək, bəzi məsələlərə münasibət bildirib.

*Əfv Komissiyasının yeni tərkibdə fevralın 16-da keçirilmiş ilk iclasında Ombudsman Səbinə Əliyeva iştirak etmişdi.*

# "Sanki Ağdamda, Füzulidə atom bombası partlayıb"

## İqor Korotçenko Qarabağa ziyarətinin təəssüratlarını jurnalistlərlə bölüşüb

**"Adamda elə təəssürat yaranır ki, elə bil Ağdamda, Füzulidə atom bombası partlayıb".**



APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiyanın "Milli Müdafiə" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko Azərbaycanın işğaldan azad olunmuş torpaqlara ziyarətinin təəssüratlarını jurnalistlərlə bölüşərkən deyib.

"İşğal altındakı torpaqların Azərbaycanın tərkibinə keçməsi, 30 il davam edən işğal dəhşətinin bitməsi sözsüz ki, sevindirici haldır. Bu baxımdan xoş təəssüratlar yaşadım. Digər tərəfdən isə, Azərbaycan azad etdikləri şəhərlər və kəndlərin ermənilər tərəfindən tamamilə dağıdılıb, məhv edildiyini görəndə dəhşətə gəldim. Mən Füzulidə və Ağdamda oldum. Bu şəhərlər tamamilə yer üzündən silinib. Adamda təəssürat yaranır ki, elə bil, orada atom bombası partlayıb. Binalar məhv edilib, evlərin özülləri belə dağıdılıb, yerlə yeksan edilib. Bir sözlə, daş üstündə daş qalmayıb. Ona görə də, hesab edirəm ki, şəhərlərin, qəsəbələrin, kəndlərin bərpa olunması üçün böyük işlər görülməlidir. Əlbəttə ki, bu, uzun illər və böyük həcmdə maliyyə xərci tələb edir. Bu mənada ermənilər özlərindən sonra sanki atom silahının bombaladığı kimi yandırılmış və məhv edilmiş torpaq saxlayıblar. Ancaq ermənilərin atom bombası olmayıb. Onları atom silahı Azərbaycana qarşı nifrəti olub. Bunun nəticəsidir ki, həmin ərazilərdə hazırda ölü mənzərə hökm sürür. Yüzlərlə kvadrat kilometr minalanmış sahələr, heç bir heyvan, quş və canlı bitkiyə rast gəlmək mümkün deyil", deyə İqor Korotçenko vurğulayıb.



# Azərbaycanla Türkiyə arasında Protokol və Fəaliyyət Planı imzalanıb

**Azərbaycan və Türkiyə arasında Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasında Protokol və Fəaliyyət Planı imzalanıb.**

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb.

Nazir bildirib ki, qeyd olunan sənədlər ölkələr arasında iqtisadi münasibətlərin dərinləşməsinə, yeni birgə layihələrin reallaşdırılmasına töhfə verəcək.

# Laçındakı əsgərlərə məktublar gəldi

## Şəxsi heyətə hərbi-vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib

**İllik fəaliyyət planına uyğun olaraq hərbi qulluqçuların döyüş əzminin artırılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təbliğat və təşviqat qrupu Laçın rayonunda yerləşən hərbi hissələrin şəxsi heyəti ilə tədbirlər həyata keçirib.**



Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, görüşlər zamanı "Əsgərə məktub" layihəsi çərçivəsində vətəndaşlar tərəfindən yazılmış məktublar hərbi qulluqçulara çatdırılıb, şəxsi heyətə hərbi-vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, eləcə də səsyayma stansiyası vasitəsi ilə döyüş və hərbi vətənpərvərlik mahnıları səsləndirilib.

# Bakı şagirdlərinin 85 faizə yaxını əyani dərslərə gəlir

## Sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur

**Paytaxtın ümumi təhsil müəssisələrində fevralın 19-na olan məlumata əsasən əyani formada dərslərə davamiyyət 85 faizə yaxındır.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) Trend-in sorğusuna cavab olaraq bildirilib ki, ümumi təhsil müəssisələrində I-IX siniflər və məktəbəhazırlıq qrupları üzrə ənənəvi təhsil qismən bərpa olunub. Paytaxtdakı təhsil müəssisələrində hazırda 410 000-dən çox şagird əyani dərslərdə iştiraka cəb olunub. Təbii ki, məktəbəhazırlıq qruplarında həftədə 2 dəfə, ibtidai siniflərdə həftədə 3 dəfə, V-IX siniflərdə həftədə 2 dəfə, xüsusi məktəblərdə (I-IX siniflərdə) isə həftədə 5 dəfə olmaqla əyani tədris təmin olunur.



Hazırda təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun olaraq təşkil edilir. Təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur və müvafiq qaydaların icrası ilə bağlı mütəmadi monitorinqlər aparılır. BŞTİ rəhbərliyi və İdarənin əməkdaşları da gündəlik məktəblərə gedir, tədrisin təşkili vəziyyəti ilə yerində tanış olurlar:

"Bütün bunlar şagird və valideynlərdə əminlik hissini artırır, ənənəvi tədrisə və müəllimlə canlı ünsiyyətə əsaslanan əyani dərs prosesinə maraq göstərənlərin faiz artımına təkan verir. İnanırıq ki, ümumi təhsil müəssisələrində ənənəvi tədrisin təşkili istiqamətində nəzərdə tutulan mərhələli tədbirlər cəmiyyətin birgə səyi ilə bundan sonra da uğurla reallaşdırılacaq".

# Ətin ucuzlaşması mümkün deyildi

## Çünki bütün örüş yerləri pambıq sahələrinə çevrilib, yem bazası zəifləyib

**Koronavirus pandemiyası ətin qiymətinə də təsir edib. 2020-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə əsasən, mal əti satışı ƏDV-dən azad edilib. Bildiyimiz kimi, təxminən bir ilə yaxındır ki, Azərbaycanda toy və yas mərasimləri də keçirilmir.**

Uzun müddət də restoranlar işləmədi. Amma bütün bunlara baxmayaraq ətin qiymətində ucuzlaşma müşahidə olunmadı. Bunun səbəbi nədir?

**Mövzu ilə bağlı suallarımızı cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, ətin qiymətinin ucuzlaşmasına və yaxud da dəyişməsinə əsas yaradan səbəb bolluqdur.** Yəni ilk növbədə ət məhsullarının bolluğu olmalıdır ki, müəyyən dərəcədə qiymətlərdə ucuzlaşma olsun. Ekspert ətin qiymətinin ucuzlaşmamasının əsas səbəbi kimi




### Nəticədə məlum olur ki, üç ildir ət idxalı artıb

örüş sahələrinin pambıqçılıq və başqa əkin sahələrinə çevrilməsində görür: "Azərbaycanda bir neçə il bundan öncə pambıqçılıqla bağlı qərarlar verildi. Qərarlar verilərkən, çox təəssüf ki, bəzi rayonlarda, əsasən də rayon icra hakimiyyətləri elmi araşdırmalar aparmadılar. Sadəcə pambıqçılıq siyasəti var deyə, o cümlədən mərkəzi hökumətə xoş gəlmək üçün bəzi örüş sahələrini pambıqçılığa çevirdilər. Bu da nəticədə yem bazasının zəifləməsinə səbəb oldu".

**Ekspert vurğulayıb ki, pambıqçılığın artması yemlərin qiymətinin bahalaşmasına da səbəb oldu:** "Təqribən 2015-2017-ci illərdə biz bu tendensiyanı gördük. Bu elə bir tendensiyadır ki, bir müddət sonra daha çox özünü büruzə verir. Artıq elə bir şəraitə gəlib çatdıq ki, iribuynuzlu və xırdabuynuzlu mal-qarada müəyyən dərəcədə say etibarı ilə azalmalar müşahidə olunur. Nəticə etibarı ilə də ət idxalı artıb".

**N.Cəfərli əlavə edib ki, ölkəyə gətirilən ətin həcmi də artıb:** "Bunun nəticəsi olaraq, təklifin bol olmaması və artmaması sonda qiymətlərin iqtisadi qanunlarla tənzimlənməsində problemlər yaşadır. Yəni bolluq və daha çox məhsul istehsal olmadığına görə qiymətlər də uzun müddətdir ki, yuxarı səviyyələrdə qalır".

**Aynurə Pənahqızı**

## Şəhid hərbçimiz Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub



**44 günlük Vətən müharibəsində itkin düşən müddətdən artıq həqiqi hərbi qulluqçu, 1996-cı il təvəllüdlü Qulamov Rəcəb Xaydaroviç dünən Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.**

APA-nın yerli bürosunun məlumatına görə, dəfn mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri, şəhidin yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

*Qeyd edək ki, 5 aydan çoxdur ki, itkin sayılan R. Qulamovun nəşi Murov istiqamətində gedən axtarışlar zamanı tapılıb.*

*Allah rəhmət eləsin!*

## Qazimiz müharibədə tibb bacısı işləyən xanımla nikah bağlayıb



**ASAN xidmətdə qazimizin nikahı qeydə alınıb.**

ASAN xidmətdən bildirilib ki, nikaha daxil olan şəxslər Vətən müharibəsi iştirakçısı, qazimiz Rüstəm və həmin müharibədə tibb bacısı kimi iştirak edərək yaralı əsgərlərimizə kömək edən Esmira oleblar.

# Qərbi azərbaycanlılar Qarabağa köçürülsün?



siyalar həmişə olub. Məsələn, Qazax-Borçalı camaatından soruşsanız, 60-70 faiz insan Qarabağdan gəldiyini deyəcək. Bu isə məşğuliyyətlə, o cümlədən əkinçilik, maldarlıqla bağlıdır. Əlbəttə, hər şey zamanla düzələcək. Amma indidən belə bəyanatlar səsləndirmək tezdir. Əvvəlcə

## Kərəm Məmmədov: "Məsələyə dair konkret dövlət proqramı hazırlanmalıdır"



**Azərbaycan Qaçqınlar Cəmiyyətinin və Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli mətbuata açıqlamasında maraqlı fikir səsləndirib. O, on minlərlə Qərbi azərbaycanlının Qarabağda məskunlaşmaq istədiyini söyləyib:**

"Dağlıq Qarabağın işğaldan azad edilmiş ərazilərinə Qərbi azərbaycanlıların köçürülməsi ilə bağlı əvvəllər Azərbaycan Qaçqınlar Cəmiyyətinə yalnız Bakıda yaşayan Qərbi Azərbaycan qaçqınları müraciət edirdilərsə, indi Azərbaycanın bütün rayonlarından müraciətlər daxil olur. Həm də müraciət edən ailələrin sayı artıq yüzləri, minləri çoxdan aşıb, on minlərlə insan işğaldan azad olunmuş ərazilərdə məskunlaşmaq istəyir".

**Tarixçi-alim Kərəm Məmmədov "Şərq"ə açıqlamasında deputatın bu fikirlərinə münasibət bildirib:** "Əslində ölkədaxili, etnosdaxili miqra-

Qarabağ bərpa olunmalı, təmir-tikinti işləri görülməlidir. Sonra isə sözügedən məsələyə dair konkret dövlət proqramı hazırlanmalıdır".

*K.Məmmədov, həmçinin "Qərbi Azərbaycan" toponimindən də danışdı:* "Biz "Qərbi Azərbaycan" deyəndə haranı nəzərdə tuturuq? Hülakülər, Səfəvilər dövründə olduğu kimi, Qərbi Azərbaycan indiki Şərqi Anadoludur. Ermənistan isə əslində Şimali Azərbaycanın mərkəzi hissəsidir. Ona görə də mən sözügedən torpaqları "Çuxursəd bəylərbəyliyinin keçmiş ərazisi" kimi adlandırmağın tərəfdarıyam. Onsuz da Ermənistan adlanan sintetik dövlət faktiki olaraq Azərbaycan mahalları hesabına yaranıb".

**Kənan**

Ötən ilin sentyabrın 21-dən qüvvəyə minən qaydalar Dövlət Gömrük Komitəsinə qarşı etirazlara səbəb olmuşdu. Belə ki, qərara görə hər bir vətəndaşın özü ilə xaricdən rüsumsuz gətirə biləcəyi malın dəyəri 1500 dollardan 800 dollara, internetdən ala biləcəyi məhsulun dəyəri isə 1000 dollardan 300 dollara endirilib. Onu da deyək ki, bir nəfər ölkəyə bu qayda ilə sadəcə ayda bir dəfə mal idxal edə bilərdi.




# Gömrük Komitəsində də islahatlar aparılmalıdır

## Elə şərait yaradılmalıdır ki, iş adamları ölkənin iqtisadiyyatına töhfə versinlər

Bu il isə əsasən, sadə vətəndaşlarla bərabər sahibkarlar da gömrük xidmətindən narazılıq edirlər. Onlar ölkəyə idxal etdiklərinin 2-3 qat artıq dəyərini gömrüyə verdiklərini, nəticədə isə iflas etdiklərini deyirlər. "Daha deyin ki, ölkəyə heç nə gətirməyin"- söyləyən sahibkarlar xaricdən gətirilən mallara gömrükdə ciddi manelər, üstəlik, həddən çox "rüsum" tələb olunmasından narahatlıqlarını ifadə edirlər.

Bildirilir ki, tələb olunan qiymətlərdən dövlət rüsumunun xəbəri belə yoxdur.

**Mövzu barədə "Şərq"ə danışan iqtisadçı-ekspert Kazım Məmmədov isə deyir ki, belə olan halda sadə vətəndaşlarla bərabər həm iş adamları, həm dövlət, həm də ölkə iqtisadiyyatı uduzur:** "Hələ pandemiyanın ölkədə kəskin yayıldığı bir dönəmdə DGK ölkəyə rüsumsuz gətirilə bilən malların dəyərini təxminən ikiqat aşağı saldı. Bu qərar bir tərəfdən ona görə doğru idi ki, ölkəyə nə qədər az məhsul daxil olarsa, həmin karqoya bulaşıb gələ biləcək virus, eləcə də virusa yoluxma halları da minimum olardı.

Lakin hazırkı dönəmdə pandemiya ölkədə nəzarətə alınıb. Ölkəyə gətirilən hər məhsul dezinfeksiya edilir, insanlar vaksinasiya olunur. Bu halda dövlət sahibkarlara xüsusilə şərait yaratmalıdır ki, onlar şəxsi biznesləri də olsa ölkə iqtisadiyyatını inkişaf etdirsinlər.

Xüsusilə də postpandemiya dövrünə hazırlaşmaq, ölkənin pandemiya dövründə iqtisadi azalmalarını hazırkı dönəmlə balanslaşdırmaq üçün Gömrük Xidməti xərcləri minimuma endirməlidir, nəinki əlavə pul almaq".

*İqtisadçı K.Məmmədov onu da dedi ki, ölkənin sərhədləri gömrüklərdən başlayır, əsas nəzarət ora edilməli, mütləq islahatlar aparılmalıdır:*

"Gömrükdən tək Azərbaycan vətəndaşları yox, digər ölkələrin nümayəndələri də keçirlər. Gərək gömrük xidmətçiləri elə işləyə ki, Azərbaycan xalqının rifahını üstün tuta, ölkəmizi xarici vətəndaşlara rüşvətxor və talançı yer kimi təqdim etməyələr.

Çünki bir dəfə gələn xarici qonaq elə ölkənin girişindən bu tip hallarla qarşılaşsa, o çətin ki, ölkəyə ikinci dəfə gəlmək istəsin. Bu da turist axınına çox mənfi təsir edəcək. Bu minvalla ziyan yenə də ölkə iqtisadiyyatına dəyəcək".

**Ağarza Elçinoğlu**

# İndi də bərəkətli dönəm başlayır

## Türkiyənin 4 mindən artıq şirkəti Azərbaycana investisiya yatırıb

**Xəbər verdiyimiz kimi, fevralın 18-də Ankarada Baş nazir Əli Əsədov və qardaş ölkənin Vitse-prezidenti Fuat Oktayın rəhbərliyi ilə Türkiyə-Azərbaycan Biznes Forumu keçirilib. Forumda iki ölkənin hökumət nümayəndələri, iş adamları, şirkət rəhbərləri, biznes və ticarət sahələrini təmsil edən tanınmış şəxslər iştirak ediblər.**

Baş nazir Əli Əsədov bildirib ki, azərbaycanlı iş adamları bu baxımdan Qafqaz və Mərkəzi Asiya ölkələrindən olan iş adamları arasında liderdir. Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə inkişafına təkan verildiyini deyən baş nazir bunun ölkələrimiz arasında ticarət dövriyyəsinin, sərmayə qoyuluşunun, turist səfərlərinin artmasına imkan yaradacağını vurğulayıb: ”Azərbaycanın və Türkiyənin birgə həyata keçirdiyi iri enerji layihələri Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. Mühüm infrastruktur layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşınan yüklərin həcmi ötən il 2 dəfə artıb”. Baş nazir əlavə edib ki, türk şirkətləri artıq infrastruktur layihələrini icra etməyə başlayıblar: ”Zəfər yolu adlanan Füzuli-Şuşa yolu, həmçinin Toğana-Kəlbəcər yolunun tikintisində artıq türk şirkətləri iştirak edirlər. Bundan əlavə, Füzulidə tikiləcək hava limanının layihəsində də türk şirkətlərinin iştirakı nəzərdə tutulub. Ümumiyyətlə, bərpa işlərinin layihələrində türk qardaşlarımızı görməkdən çox məmnunuq”. Türkiyənin Vitse-prezidenti Fuat Oktay da öz növbəsində bəyan edib ki, Türkiyə ilə Azərbaycan bir-birinin, sadəcə, qanı və canı ilə qardaşı deyil, eyni zamanda, ən önəmli siyasi müttəfiqi, əsas ticarət tərəfdaşı və sərmayəçisidir. Türkiyənin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında fəal iştirak edəcəyini bildirən Vitse-prezident deyib ki, Naxçıvan ilə Azərbaycanın digər bölgələri arasında planlaşdırılan dəhlizin açılması ilə Bakı Mərkəzi Asiya bölgəsində önəmli logistik mərkəz halına gələcək.



**“Qardaş ölkə işğaldan azad olunmuş ərazilərimizdə quruculuq və bərpa işlərində də yaxından iştirak edəcək”**

**Mühüm Forumla bağlı ”Şərq”ə danışan millət vəkili, iqtisadçı-ekspert Azər Badamov deyib ki, Baş nazir Əli Əsədovun rəhbərliyi altında nümayəndə heyətimizin Türkiyəyə səfəri ölkələrimiz arası iqtisadi əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi baxımından çox məhsuldardır.** Deputat bildirib ki, səfər çərçivəsində hökumətlərarası 11 saziş imzalanıb: ”İmzalanmış hər bir sazişin arxasında böyük hədəflər dayanır. Atılan bütün addımlar, imzalanan sənədlər iqtisadi və dostluq əlaqələrinin daha da inkişafına hesablanıb. Qardaş ölkə ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması hədəflənib. Məlumdur ki, Azərbaycanın 2 mindən çox şirkəti Türkiyəyə investisiya yatırıb və orada fəaliyyət göstərirlər. O cümlədən Türkiyənin 4000-dən artıq şirkəti Azərbaycana investisiya yatırıb. Qardaş ölkə işğaldan azad olunmuş ərazilərimizdə quruculuq və bərpa işlərində də yaxından iştirak edəcək”.

*Parlament üzvü qeyd edib ki, torpaqlarımızın azad olunması yeni nəqliyyat dəhlizlərini aktuallaşdırıb:* ”Üç il əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunda daşınmalar hər il artmaqdadır. Ona görə də Azərbaycanın təklif etdiyi 3+3 formatında yeni regional əməkdaşlıq platforması daha da aktuallaşmaqdadır. Türkiyə-Azərbaycan arasındakı bütün sahələrdə münasibətlər ”iki dövlət bir millət” prinsipinə əsaslanıb. Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın iki ölkə yoxdur. Ölkələrimiz arasında gediş-gəlişin sadəcə şəxsiyyət vəsiqəsi ilə mümkün olması Türkiyə-Azərbaycan əlaqələrini ən pik həddə çatdıracaq”.

**İsmayıl Qocayev**



# Rusiya “Böyük Turan”dan ehtiyatlanır

## Lavrovdan ən ağır sualın cavabını soruşdular

**Rusiyanın Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrov Türkiyənin ”Böyük Turan” dövləti qurmaq məqsədini güdmədiyini söyləyib. Onun sözlərinə görə, heç keçmiş SSRİ respublikaları da bu ideyanı, çətin ki, dəstəkləyələr.**

”Tarixi mənada fövqəlmilli qurum kimi ”Böyük Turan”dan söhbət gedirsə, hesab edirəm ki, Türkiyənin məqsədi bu deyil. SSRİ-nin parçaları olan və sonra müstəqillik qazanan ölkələrin reallıqda belə bir ideyanı necəsə dəstəkləyəcəyini təsəvvür etmirəm. Əksinə, onların xarici siyasətlərinin pafosu və praktiki fəaliyyətləri öz milli dövlətçiliklərini gücləndirməyə yönəlib”, - Lavrov RBK TV-nin efirində ”Azərbaycan kimi ölkələr ”Böyük Turan”a daxil olarsa, Moskva Türkiyənin güclənəcəyindən çəkinirmi?” sualına cavab verərkən deyib.

Onun sözlərinə görə, Türkiyənin öz maraqları var - bu da eyni dili danışan millətlərdir.

Lavrov qeyd edib ki, türkdilli xalqların münasibətləri mövzusu Türkiyə ilə digər ölkələr, o cümlədən Azərbaycan və Orta Asiya dövlətləri arasında əməkdaşlıqda özünə dərin yer edib.

”Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası var, orada biz müşahidəçi kimi iştirak edirik. Bizim bir neçə respublikamız əlaqə qurulmasında maraqlıdır. Orada onlar konkret layihələr irəli sürürlər. TÜRKSOY kimi bir təşkilat var - Beynəlxalq Türk mədəniyyəti təşkilatıdır. Türkdilli Dövlətlərin Parlament Assambleyası kimi bir qurum da var. Onların hamısı çoxdan fəaliyyət göstərir. Onların öz planları var, tədbirlər keçirirlər. Əsasən bu iş mədəni, maarifləndirici ənənələr, dil vasitəsilə gerçəkləşir”, - nazir deyib.

# Jurnalistika biznes platformasına keçir

## Türkiyə ilə əməkdaşlığımız ölkə mediasının inkişafına ciddi töhfə verəcək

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanunu təsdiqləyib.**

”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” imzalanmış Anlaşma Memorandumu təsdiq edilib. Beləliklə, iki qardaş ölkə arasındakı əməkdaşlıq bir az da genişlənir. Əlbəttə, bu, iki tərəf üçün əlamətdar hadisədir.

**“Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli ”Şərq”ə açıqlamasında sözügedən sənədin əhəmiyyətini yüksək qiymətləndirib:** ”44 günlük müharibə dövründə Türkiyə mediası Azərbaycanın informasiya siyasətinə ciddi dəstək verdi. Və bu, qələbəmizə töhfə oldu. Düşünürəm ki, qardaş ölkə mediasından öyrənəcəklərimiz çoxdur.

Bunlardan ən başlıcası isə jurnalistikanın biznes platformasına keçməsidir. Əməkdaşlığımızın genişlənməsi ölkə mediasının inkişafına ciddi töhfə verəcək. Həmçinin vahid media platformasının meydana çıxması üçün şərait yaranacaq və bu, bizi daha da güclü edəcək. Eyni zamanda türk dövlətlərinin əməkdaşlıq şurasının fəaliyyətinin genişlənməsinə, türk dövlətlərinin vahid strategiya ilə hərəkət etməsinə zəmin yaranacaq.

Lakin sədəcə sənədin imzalanması ilə kifayətlənmək olmaz. Ciddi addımlar atılmalıdır. Reklam bazarı formalaşmalı, iqtisadiyyat liberallaşmalıdır”.

**Kənan**

# Yağış suyu “Azərsu”nun əhaliyə verdiyi sudan təmiz olacaq

“Layihə hansı tərəfdən baxılsa, faydalıdır. Həmin layihə kampaniya kimi yox, strateji proqram kimi həyata keçirilməlidir”



Azərbaycanda şirin su qıtlığının qarşısını almaq məqsədilə yağış sularından istifadə ilə bağlı dövlət tərəfindən qanun layihəsi hazırlanır. Layihəyə görə, yağış suyunun istifadəsi üçün bəzi binaların müvafiq yerlərində bu suyu toplaya bilən xüsusi aparatların quraşdırılması nəzərdə tutulub.

**Mövzuya münasibət bildirən ”Altay” Sosial Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı deyib ki, yaxın gələcəkdə böyük bir su böhranının yaşanacağı gözlənilir:** ”Böhranın qarşısını almaq üçün çoxsaylı tədbirlər həyata keçirilməlidir. Onlardan ən effektiv olanı isə yağış sularından istifadə ilə bağlı dövlət tərəfindən qanun layihəsinin hazırlanmasıdır. Bu su ”Azərsu”nun əhaliyə verdiyi sudan daha keyfiyyətli və təmiz olacaq. Ona görə ki, yağış suyu təbiətdə ən təmiz su sayılır. Yağış suyunu böyük xətlər, kanallar çəkmədən, əlavə sistemlər yaratmadan əldə etmək mümkündür. Bəzi mənbələrdə su azalan zaman, yaxud qəza baş verəndə bu yığışmış ehtiyatdan istifadə etmək olacaq. Layihə hansı tərəfdən baxılsa, faydalıdır. Həmin layihə kampaniya kimi yox, strateji proqram kimi həyata keçirilməlidir. Onu elə formada tətbiq etmək lazımdır ki, effektiv və təhlükəsiz olsun. Böyük şəhərlərdə, məsələn, Bakıda bu barədə bir qədər problemlər yarana bilər. Çünki binaların damına müxtəlif avtomobillərin qazından tutmuş, zavodların tüstülərinə qədər hopur. Bütün bu amillər nəzərə alınmalıdır və alınacaq. Lakin rayonlarda yağış sularından daha təmiz şirin su əldə etmək mümkündür”.

**E.Bayramlı deyir ki, həmin su nə qədər olmasa da, ”Azərsu”nun bizə verdiyi sudan təmiz olacaq:** ”Çünki bu yaxınlarda özüm evdəki suyu TDS (suyun sərtliyinin TDS-3 metr ölçüsü, duzölçən) cihazı ilə yoxladım. Nəticəyə əsasən, Bayıl zonasında verilən suyun TDS göstəricisi 750-dir. Bu, o qədər yüksək rəqəmdir ki, onu sözlə ifadə etmək mümkün deyil. Həmin suyun göstəriciləri Ümumdünya Səhiyyə Təşkilatının normalarına uyğun deyil. Onu şübhəli maye saymaq olar və həmin mayeni bitkilərə belə vermək olmaz”.

**Aytac Ali**

# İrana qarşı heç bir təzyiq aradan qalxmayıb

## Sadəcə olaraq ABŞ "nəfəslik" açır ki, Tehran vəziyyəti daha yaxşı dəyərləndirsin



Co Bayden Amerikada prezident seçilər-seçilməz verdiyi bəyanatlar bir neçə ölkənin üzərindən "meh" kimi əsib keçdi. Lakin "meh"in nə qədər güclü ola biləcəyi bəlli deyil. C.Bayden Rusiyanın ABŞ üçün təhdid , o cümlədən Türkiyənin Rusiyadan S-400 raket almasının yolverilməz olduğunu, həmçinin İranla dialoqun davam edəcəyini bildirmişdi. Görünür, İranla ABŞ münasibətləri yumşala bilər.

Bu dəfə ABŞ Dövlət Departamentindən bildirilib ki, Amerika BMT-yə təqdim etdiyi İrana qarşı sanksiya rejiminin bərpa edilməsi tələbini geri götürüb.

Bununla bağlı ABŞ-ın BMT-dəki daimi nümayəndəsinin səlahiyyətlərini icra edən Riçard Mills qurumun Təhlükəsizlik Şurası üzvlərini məlumatlandırıb.

Qeyd edək ki, 2020-ci ilin avqustunda keçmiş administrasiyanın dövlət katibi Mayk Pompeo TŞ-də İrana qarşı 2231 saylı qətnamə ilə ləğv olunan sanksiyaların bərpası təşəbbüsü ilə çıxış edib. ABŞ buna səbəb kimi İranın nüvə sazişinə əməl etməməsini göstərib.

Vaşinqtonun sanksiya təklifini geri götürməsi ABŞ-ın İranla nüvə sazişinin bərpası məsələlərinə həsr olunmuş görüşdə iştiraka razılıq verməsi ilə eyni vaxta təsadüf edib.

**Məsələni "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltan bildirib ki, atılan addım ABŞ-ın İrana qarşı iddialarından əl çəkməsi anlamına gəlmir**: "Amerikanın BMT-yə təqdim etdiyi sanskiya tələbini geri götürməsi sadəcə olaraq ABŞ-ın yeni Adminstrasiyasının İrana münasibətdə xoşməramlılığının göstəricisidir. Çünki İran hələ də ABŞ-ın ona qarşı irəli sürdüyü şərtləri qəbul etmir. Bundan sonrakı mərhələdə ABŞ, Avropa İttifaqı, Rusiya, Çin İranın nüvə proqramı ilə bağlı danışıqlara başlayacaq. Daha sonra sanksiyanın müddəalarının həyata keçirilmə məsələsinin nə qədər doğru olub-olmadığı öz əksini tapacaq".

**S.Soltan deyib ki, Rusiya və Türkiyəyə qarşı tətbiq edilən sanksiyaların motivləri fərqlidir**: "Türkiyə Rusiyadan S-400 raket kompleksini aldığı üçün ona qarşı sanksiya tətbiq edilib. ABŞ təklif edir ki, bu kompleksdən imtina edilsin. Türkiyə də qarşılıq olaraq kompleksi alıb, amma istifadə etməyəcəyini bildirir. Deyir ki, ABŞ, o cümlədən NATO-ya üzv olan başqa ölkələr həmin raket kompleksini əvəz edə biləcək qurğular tapsın. Bu məsələ istiqamətində danışıqlar gedir. Nəticədə, Türkiyə ilə ABŞ arasındakı sanksiya məsələsi həllini tapacaq.

Rusiyaya tətbiq edilən sanksiya isə Ukrayna ilə bağlıdır. Bu, Rusiyanın Krım yarımadasını ilhaq etməsi, Ukraynanın Şərqində separatçıları dəstəkləməsindən irəli gəlir. Güman ki, İranla pərdəarxası danışıqlar aparılır.

Bu günlərdə Atom Enerjisi Beynəlxalq Agentliyin baş direktoru İrana səfər etdi. İranla Atom Enerjisi Beynəlxalq Agentliyi arasında hansısa anlaşma ola bilər. O anlaşmanın nəticəsi olaraq, ABŞ həmin addımı atıb. Lakin ABŞ-ın İrana qarşı iddiaları tam təmin etməsi ilə bağlı heç bir məlumat yoxdur. Bu isə sanksiyaların davam edəcəyi anlamına gəlir. Hələ başlanğıcdır, sonrakı mərhələdə bütün məsələlərin gedişatı İran tərəfindən asılı olacaq. İran atom sahəsində şəffaflığını təmin etsə, raket istehsalını dayandırsa, insan haqlarına hörmət etsə, gözlənilən təzyiqlərdən yayına bilər".

*Politoloq ABŞ-ın İrana qapı açdığını deyib:* "Amerika İrana "nəfəslik" açır ki, işıq düşsün və hadisələrə daha gerçəkçi yanaşsın. İranın məsələyə daha real yanaşa bilməsi üçün ölkədəki vəziyyət bunu tələb edir. Təzyiqlər isə öz yerindədir, heç bir təzyiq aradan qalxmayıb".

**Aygün Tahirqızı**

# Ankarada 11 sənəd imzalanıb

## Elşad Mirbəşiroğlu: "Türkiyə ilə qarşılıqlı münasibətlərimiz xüsusi səciyyə daşıyır"



**Ötən gün Azərbaycanla Türkiyə arasında əməkdaşlığa dair 11 sənəd imzalanıb.**

Sənədlərə Ankarada keçirilən Türkiyə-Azərbaycan İş Adamları Forumunda imza atılıb.

Söhbət iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan sazişlərdən və niyyət protokollarından gedir. Sənədlərə Azərbaycan tərəfdən İqtisadiyyat naziri Mikayıl Cabbarov, Nazirlik yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROPO) sədr əvəzi Yusif Abadullayev, eləcə də "CTS Holdinq", "ASGroup İnvestment", "Bakı Tekstil Fabriki" kimi biznes strukturlarının rəhbər şəxsləri imza atıblar. Deməli, bizim əlaqələrimiz daha da güclənir və tədricən "iki dövlət, bir millət" formatından "bir dövlət, bir millət" formatına keçirik.

**Millət vəkili, politoloq Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında bu əməkdaşlığın əhəmiyyətindən danışdı:** "Bu, münasibətlərimizin inkişafının növbəti mərhələsinin başlanmasıdır. Ümumiyyətlə, Azərbaycan qardaş Türkiyə ilə bütün sahələrdə tərəfdaşlıq edir. Həmin əməkdaşlığın tədricən inkişaf etməsi isə hər iki tərəfin fəallığı və iradəsi ilə bağlıdır. İnanıram ki, tərəfdaşlıq daha da güclənəcək".

E.Mirbəşiroğlu, həmçinin tərəflər arasındakı əlaqələrin xarakterindən də danışdı: "Rəsmi Ankaranın ticari və iqtisadi əməkdaşlığı üçün kifayət qədər potensialı var. Azərbaycan isə dünyada etibarlı tərəfdaş kimi tanınır. Bizimlə əməkdaşlıq etmək istəyənlər çoxdur. Lakin Türkiyə ilə qarşılıqlı münasibətlərimiz xüsusi səciyyə daşıyır. Bu, özünü ümumi dəyərlərdə, ümumi maraqlarda göstərir.

Bizim partnyorluğumuz mədəni-mənəvi elementlərə söykənərək daha effektiv olması ilə seçilir".

**Kənan**

# Erməni əhalisi bezib, indi sadəcə yaşamaq istəyirlər

## Xalq "Qarabağ klanı"nın quldur "liderlərinə" ikinci dəfə şans vermək niyyətindən uzaqdır



**Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın "Armnyus" kanalına verdiyi absurd müsahibədə bəzi etiraflar da yer alıb. Məlumdur ki, gecikmiş etiraflar Sarkisyanın "həqiqət" tərəfdarı olduğunu göstərməyə yox, yerlərdə sürünən reytinqini qaldırmağa, siyasi meyit imicindən qurtulmasına hesablanıb.**

Sarkisyan revanşist şüarlardan istifadə etməklə ermənilərin rəğbətini qazanmaq və yenidən siyasi arenaya qayıtmaq niyyətindədir. Lakin Sarkisyanın "şok" açıqlamaları heç bir halda onun reabilitasiyasına, ictimaiyyətin gözündə yüksəlməsinə kömək etməyəcək. Çünki Sarkisyan və onun kimilərin "qatar"ı çoxdan gedib.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında vurğulayıb ki, hazırda Ermənistan ictimaiyyəti "Qarabağ klanı"nın quldur "liderlərinə" ikinci dəfə şans vermək niyyətindən uzaqdır**: "Sıravi ermənilər bu klanın son 30 ildə Ermənistanı düçar etdiyi bəlalardan, despotik idarəetmədən, daimi müharibə xofundan beziblər. Ermənilər artıq normal yaşamaq istəyirlər. Ona görə də sabiq prezident Serj Sarkisyanın Ermənistanda reytinq göstəricisi sıfırın altındadır. Onun Paşinyanın ünvanına sərt ifadələr işlətməsi ermənilərin baş nazirə dəstəyinə əsla təsir göstərməyəcək. Ancaq biz Sarkisyanın bu açıqlamalarından həm onun özünə, həm də Ermənistana qarşı beynəlxalq kürsülərdə istifadə edə bilərik. Onun İkinci Qarabağ müharibəsi dövründə ərazilərimizə "İsgəndər" raketlərinin atılmasının vacibliyi barədə səsləndirdiyi "Horadiz "İsgəndər"lə vurulmalı idi" sözü azərbaycanlılara qarşı nifrətin, etnik düşmənçiliyin açıq ifadəsidir. Sarkisyan kimilərin öz qəddarlıq və qanunsuzluqlarla bağlı etiraflarından Ermənistanın terrorçu dövlət kimi dünyada ifşa olunmasında istifadə etməliyik. Vaxtilə ingilis jurnalistinə verdiyi müsahibəsində Xocalı soyqırımını qəsdən törədiyini etiraf edən Serj Sarkisyanın xisləti zərrə qədər də dəyişməyib. 1992-ci ildəki hansı düşüncədə idisə, indi də odur. Sarkisyan müasir erməni faşizminin gerçək simasıdır".

**İsmayıl Qocayev**

# Zəngəzura da nəzarət bizə keçəcək



## Ermənilər oradakı əkin yerlərini, yaylaqları, qışlaqları itirirlər

**Zəngəzurun Gorus-David Bek yolunun 21 kilometrlik hissəsi Azərbaycanın nəzarətinə veriləcək. Bu barədə erməni mediası - "Hraparak" qəzeti məlumat yayıb.**

Bildirilib ki, ikitərəfli razılığa əsasən, yolun bu hissəsi təxminən üç il Ermənistan və Azərbaycan tərəfindən birgə istismar ediləcək. 3 ildən sonra isə Ermənistan həmin yolu tamamilə Azərbaycanın nəzarətinə verib, yeni çəkilən yoldan istifadə etməyə başlayacaq. Başqa bir məlumata görə isə Zəngəzurun Zeyvə kəndində süni məskunlaşdırılan ermənilər bu yaşayış məntəqəsini tərk edirlər.

Xəbəri kəndin icma rəhbəri Beniamin Poqosyan açıqlamasında bildirib. O, sərhədlərin delimitasiyasından sonra Azərbaycan ordusunun mövqelərinin kəndə yaxın olduğunu deyib. İcma rəhbəri eyni zamanda artıq təsərrüfatla məşğul olmaq üçün yararlı torpaqların az olmasından şikayətlənib. "Mövqelərin Azərbaycana verilməsindən sonra nə heyvandarlıq, nə də əkinçiliklə məşğul olmaq mümkündür. Kəndlilər mal-qarasını satıb kənddən çıxırlar. Hökumət bizim problemlərlə maraqlanmır". İcma rəhbərinin sözlərinə görə, vəziyyət belə davam edərsə, yaxın vaxtlarda kənd tamamilə boşaldılacaq.

**Yayılan informasiyalar barədə "Şərq"ə danışan Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Zəngəzurun da gec-tez bizim nəzarətimizə keçəcəyi qənaətindədir:** "Bu proses demarkasiya ilə bağlıdır. Sərhədlər müəyyənləşir və sərhəddə yaxın ailələr daha orada yaşamaq istəmirlər. Çünki psixoloji cəhətdən təzyiq altındadırlar, narahatlıq keçirirlər.

Təsadüfi deyil ki, hətta erməni mətbuatı da Zəngəzurun əldən getdiyini yazır. Beləliklə, oradakı əkin yerlərini, yaylaqları, qışlaqları da itirirlər.

Proses belə də davam edəcək. Tədricən sərhəddəki kəndlərin böyük əksəriyyəti boşaldılacaq. Əslində bizim olan torpaqlardan illər uzunu ermənilər bəhrə görüblər. Artıq ədalətin bərpası vaxtıdır.

Təhlükəsizliyini düşünən ermənilər geri çəkildikcə həm də iqtisadi cəhətdən itirəcəklər. Nəticədə ərazilər boş olacaq və biz Zəngəzura da nəzarət edəcəyik".

**Kənan**

# Heç kəs yaxasını çəkməz

## Gənclərdən ibarət qruplar Qarabağın quruculuğunda həvəslə çalışacaqlar



Milli Məclisin deputatı Afət Həsənova düşmən tapdağından xilas olunmuş torpaqlarda bərpa işləri ilə bağlı gənclərdən ibarət qruplar yaradılması barədə təklif verib. O qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün çoxlu sayda işçilərə, müxtəlif sahələrdə mütəxəssislərə tələb yaranacaq.

Bu baxımdan, gənclərin mütəşəkkil şəkildə işğaldan azad edilmiş ərazilərdə görüləcək işlərə cəlb olunması məqsədəuyğun olar.

Gənclər təşkilatları, gənclərlə işləyən dövlət qurumları, ali təhsil müəssisələri, peşə məktəbləri bu işlərdə fəal ola bilərlər. Misal üçün, gənclərdən ibarət inşaat qrupları və digər işləri yerinə yetirəcək qruplar yaradıla bilər, o qrupları müəyyən təlimlər keçdikdən sonra bərpa və yenidənqurma işlərinə cəlb etmək olar.

Hesab edirəm ki, gənclər özləri də bu işlərə böyük maraq göstərəcəklər. Həm gənclərin məşğulluğu təmin olunacaq, eyni zamanda onlar böyük təcrübə qazanacaqlar.

**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı deputatın təklifini dəstəkləyərək bildirib ki, millət vəkili çox əhəmiyyətli və vacib bir təkliflə çıxış edib və onun bu fikri təqdirəlayiqdir:** "2020-ci ölkəmizdə könüllülər ili elan edilmişdi. Azərbaycan gəncləri nəinki ötən il, eyni zamanda bundan əvvəl də ölkəmizin ictimai-siyasi, mədəni həyatında yaxından iştirak ediblər. Xüsusən, pandemiya dövrü ərzində gənclərimiz böyük fədakarlıqla sosial qayğıya ehtiyacı olan yaşlılara, o cümlədən digər sosial qruplardan olan insanlara könüllülük prinsipi əsasında yardım göstərdilər. Həmçinin müharibə gedən zamanda da onlar bütün proseslərdə ön planda çıxış edib, ordunun və dövlətin yanında oldular. Mən elə hesab edirəm ki, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulmasında, infrastrukturun yaradılmasında və orada ümumiyyətlə ictimai-siyasi həyatın formalaşmasında Azərbaycan gəncləri yaxından iştirak edəcək.



Düşünürəm ki, bu sahədə gənc mütəxəssislərin köməyi olduqca vacibdir və bizim buna ehtiyacımız var. Gənclər bütün cəmiyyətlərdə olduğu kimi Azərbaycan cəmiyyətində də ictimaiyyətin avanqardı rolunu oynayır. Şübhəsiz ki, uyğun olan zamanda gənclərimiz istənilən sahədə həmin torpaqlarımızın dirçəldilməsi prosesində yaxından iştirak edəcək və öz yardımlarını əsirgəməyəcəklər".

**Aytac Ali**

## Aşıq Ələsgərin yubileyi bahar fəsli kimi xoşdur

### Məhərrəm Qasımlı: "Biz dədə Ələsgəri ucaltmaqla o yurdun ruhuna, qutsallığına üz tuturuq"



**Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin dünyaya gəlməsinin 200 illik yubileyi tamam olur. Qeyd edək ki, Prezident də yubileyin təntənəli keçirilməsi ilə bağlı sərəncam imzalayıb.**

Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırıb. Xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş edib.

**Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı "Şərq"ə açıqlamasında Aşıq Ələsgərin yubileyinin təntənə ilə qeyd edilməsinin əhəmiyyətindən söz açıb:** "Aşığın 200 illiyinin keçirilməsi musiqi və poetik mədəniyyətimizin təcəssümüdür. Bu, yaz və bahar fəsli kimi xoşdur. Ona görə Aşıqlar Birliyi, saz və söz ictimaiyyəti adından cənab Prezidentə təşəkkür edirəm. Aşıq Ələsgərə verilən dəyərin arxasında təkcə ozan-aşıq sənəti deyil, həm də onun doğulduğu Göyçə torpağının müqəddəsliyi var. Biz dədə Ələsgəri ucaltmaqla o yurdun ruhuna, qutsallığına üz tuturuq. Fikrimcə, görüləcək işlərimiz çoxdur. Aşıq Ələsgərin külliyyatının geniş miqyasda çap olunması, şeirlərindən ibarət audio və video disklərin hazırlanması, elmi-tədqiqat işlərinin aparılması olduqca vacibdir. Yəqin yubileylə bağlı tədbir Bakıda baş tutacaq. İnşallah, o zamana qədər pandemiya dövrü bitər. Azərbaycanın müxtəlif bölgələrində, Qarabağda tədbirlər təşkil edərik. Hamımız birmənalı şəkildə bununla bağlı işlər görməyə hazırıq".

**Samirə Ərəbova**

## Türk dünyasının baş prokurorları birləşəcək

### Sahib Məmmədov: "Gərək əvvəlcə türkdilli dövlətlər arasında qarşılıqlı hüquqi yardım haqqında sənəd imzalansın"



**Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev jurnalistlərə müsahibəsində maraqlı məqamlara toxunub. Görüşlərdə mühüm məsələlərin müzakirə olunduğunu və əhəmiyyətli qərarların qəbul edildiyini vurğulayan Baş prokuror bildirib:**

"Ən mühüm məsələlərdən biri odur ki, həmkarım, Türkiyənin Baş prokuroru Bəkir Şahinlə qarşıdakı illərdə türkdilli ölkələrin Baş Prokurorları Şurasının yaradılması üzərində işləmək və türkdilli ölkələrin baş prokurorlarının illik ümumi konfransının keçirilməsini təşkil etmək barədə razılığa gəldik. Hesab edirik ki, bu, çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Təbii ki, digər məsələlər də müzakirə olundu. Konkret cinayət işləri üzrə əməkdaşlıq, ekstradisiya məsələləri müzakirə edildi. Hesab edirəm ki, bizim faydalı əməkdaşlığımız həm dövlətlərimizin, həm xalqlarımızın və həm də hər iki dövlətin prokurorluqlarının mənafeyinə xidmət edir".

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bu barədə "Şərq"ə danışarkən təşəbbüsü yüksək qiymətləndirib:** "Əlbəttə, müzakirəyə layiq təklifdir. Bəzi ölkələrdə prokurorluq institutları yoxdur. Bəzilərində isə səlahiyyət dairələri bizimkindən fərqlidir. Ancaq belə bir məsələnin reallaşması üçün gərək əvvəlcə türkdilli dövlətlər arasında qarşılıqlı hüquqi yardım haqqında sənəd imzalansın. Bu, daha yaxşı inteqrasiya üçün vacibdir. Hər halda çalışmaq lazımdır ki, sənəd sözdə qalmasın, ciddi nəticələr əldə edilsin. Məsələn, cinayət təqibində əməkdaşlıq və koordinasiyalı fəaliyyət mühüm şərtlərdəndir".

**Kənan**

# İşlər ağır gedir, vaxt aparır

## Ermənistan minalanmış ərazilərin xəritəsini mütləq bizə verməlidir

Ermənistan Azərbaycana Dağlıq Qarabağ ətrafındakı minalanmış ərazilərin xəritəsini mütləq verməlidir. Bu barədə Moskva-Bakı videokörpüsündə çıxış edən Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib. Onun sözlərinə görə, işğaldan azad olunan Ağdam və Füzuli rayonlarında yüzlərlə kvadrat kilometr minalanmış ərazi var:



"Xəritə olmadan 30 il bundan öncə doğma yurdlarından məcburi köçkün düşmüş dinc azərbaycanlıların qayıdışının təhlükəsizliyini təmin etmək çətindir. Təəssüflər olsun ki, biz bu məsələdə Ermənistan tərəfinin xoşməramlı iradəsini görmürük. Ermənistan minalanmış ərazilərin xəritəsini vermək istəmir. Hər zaman olduğu kimi qeyri-konstruktivlik nümayiş etdirir". Rusiyalı hərbi ekspert Ermənistan tərəfində minalanmış ərazilərin xəritəsinin olduğuna əmindir: "Erməni hərbçilər Rusiya hərbi məktəbinin yetirmələridir. Təlimata görə, minalanan ərazilərin xəritələri mütləq tərtib olunur. Həmin xəritələrin bir nüsxəsi Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahında saxlanılmalıdır. Başqa cür mümkün deyil. Ona görə də hesab edirəm ki, beynəlxalq ictimaiyyət, həmsədr ölkələr, xüsusilə də Moskva Ermənistana bu xəritələri Azərbaycan tərəfinə verməsi üçün təzyiq etməlidir. Sözsüz ki, Rusiya bu məsələdə xüsusi rol oynamalıdır. Çünki Rusiya vəziyyətin sülh yolu ilə inkişafında, regiona tammiqyaslı dinc həyatın qayıtmasında maraqlıdır". Ekspertin sözlərinə görə, minalanmış ərazilərin xəritəsi olmadan bu proses çox gecikə bilər.

**Korotçenkonun Ermənistana çağırışı ilə bağlı "Şərq"ə danışan politoloq Azər Qasımov deyib ki, işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşma prosesinə ən qısa zamanda başlamaq lazımdır. Lakin ekspertin fikrincə, buna mane olan minalanma faktoru çox təhlükəlidir:** "Minaların partlaması nəticəsində bir neçə hərbçimiz və mülki şəxs həyatını itirib, yaralanıb. Ona görə də Ermənistanın minalanmış sahələrin xəritəsini Azərbaycana verməsi mütləqdir. Uzun illər həmin ərazilərdə müdafiə sədləri olub və bölgə hərbi göstərişlər əsasında planlı şəkildə minalanıb. Hərbi qaydalara görə, minalar planlı, sistemli qaydada və nöqtələr qeyd olunaraq basdırılır. Təbii ki, ara-sıra plansız minalama ola bilər, amma bunun elə çox olmadığı qənaətindəyəm. Çünki ermənilər həmin ərazilərdən əkin-biçin, heyvandarlıq məqsədi ilə istifadə ediblər. Təsadüfi yerlərə mina basdırılması onların özlərinə də təhlükə ola bilərdi. Böyük ehtimalla hər şey planlı şəkildə olub".

*Analitikin sözlərinə görə, xəritələrin ermənilərdən alınması minalardan təmizlənmə işini həm asanlaşdırar, həm də prosesi sürətləndirərdi:* "Türkiyə 20 ədəd məsafədən idarə olunan mina təmizləyən qurğular göndərib. Amma plansız şəkildə minaların təmizlənməsi çox vaxt aparır və dəqiq işləməyə mane olur. Dəqiq harada mina olduğunu bilmədiyimiz üçün bütöv ərazini axtarmaq məcburiyyətində qalırıq. Azərbaycan Ermənistandan minalanmış ərazilərin xəritəsini tələb etməlidir. Lazım gələrsə, təzyiq məqsədi ilə erməni əsirlərdən də istifadə etməliyik. Rusiyanın da bu işdə yardımı mümkündür. Bəlkə Rusiya və Ermənistanın xəritələrin verilməsindən gözləntiləri ola bilər. Məncə, kiçik güzəştlər müqabilində buna getməliyik".

**İsmayıl Qocayev**

# “Müharibə ehtimalını bizə 10-15 gün əvvəl demişdilər”



## Vətən savaşı qəhrəmanı, Nüsrət Kəsəmənlinin nəvəsi son günə qədər döyüşüb





**İllər öncə bir şair yaşayırdı. Bu gün də yaşayır, amma şeir kimi. Şeirləri nəğmələrin qonağı, dillər əzbəridir. Elə təkcə ”Biri vardı, biri yox” şeiri hər kəsin qəlbinə, həyatına sirayət edib. İndi özü də yoxdur. Amma ailəsi onun adını yaşatmağa davam edir. Sevgi şairi Nüsrət Kəsəmənlidən danışıram. Şairin nəvəsi Cavidan Kəsəmənli də 44 günlük Vətən müharibəsində iştirak edib, son ana qədər savaşıb. Biz də Cavidan bəylə həmsöhbət olub, döyüş yolundan, şəxsi həyatından, fəaliyyətindən, sənətindən və babasından danışdıq.**

**- Cavidan, başqa suallara keçməzdən əvvəl gəl öncə Vətən savaşından danışaq.**

- Füzuli istiqamətində, Lələtəpənin yaxınlığında döyüşə başladıq. Hazır vəziyyətdə idik. Çünki 10-15 gün əvvəldən bizə müharibə ehtimalının olduğunu demişdilər. Sentyabrın 27-si səhərə yaxın 6 radələrində əks-hücuma keçdik. Müharibədə divizionda top heyətində idim. Son günə kimi savaşdım.

**- Döyüş zamanı ab-hava necə idi?**

- Bir az həyəcan və qayğı vardı. Kimsə deyirsə, həyəcanlı deyildim, yanlışdı, bunu səmimiyyətdən uzaq kimi qiymətləndirirəm. Təbii ki, bir müddət sonra müharibəyə, o situasiyaya alışdıq. Həm də qürurla deyirəm, mən, əsgər yoldaşlarım və digər müharibə iştirakçıları savaşa məsuliyyətlə hazırlaşmışdıq. Ona görə torpaqlarımız işğaldan azad olundu.

**- Müharibə sizə nələr öyrətdi?**

- Çox şeylər İradəli, səbirli olmağı, aclığa, susuzluğa dözməyi, dostluğu, yoldaşlığı aşıladı. Əlbəttə, savaşdan öncə bunların müəyyən qədəri məndə var idi. Amma orda bir sıra çətinliklər yaşadıq. Məsələn, əsgər yoldaşlarımla ailə kimi idik. Bir-birimizi qardaş, dost gözündə gördük. Komandirlərimizi, zabit heyətini valideynlərimiz bilirdik. Müharibənin mənə təlqin etdiyi müsbət cəhətlər çox oldu.

**- Bir az da fəaliyyətinizdən danışaq. Aktyorsunuz, səhv eləmirəmsə, yeni məzun olmusunuz. Bundan sonra sənətinizlə bağlı nə kimi planlarınız var?**

- Dram aktyorluğunu 2016-cı ildə bitirdim. Ötən il isə magistraturanı baş vurdum. Bununla yanaşı, Türkiyədə ”Sinema güzeli” layihəsinin Azərbaycan seçimlərində birinci yerə layiq görüldüm. İndi isə hərbi xidmətimi tamamlayıb, işimə ciddi şəkildə davam edəcəm. Həm televiziyada, həm də teatrda rəğbət qazanan, seçilən aktyor olacağıma əminəm. İnanıram ki, bunun üçün məndə bütün imkanlar var. Sadəcə səbirli davranıb, düzgün istiqamətdə irəliləməliyəm.

**- Bəs özünüzə örnək gördüyünüz, yaxud da fəaliyyətini bəyəndiyiniz aktyor varmı?**

- Özünü gələcəyin idealı kimi görmək istəyən şəxsin idealı ola bilməz (təbəssüm edir). Təbii ki, zarafatdır. Robert Pattinsonu həm sima, həm də aktyorluq baxımından çox bəyənirəm.

**- Azərbaycanlı müasirlərinizi necə qiymətləndirirsiniz?**

- Potensialı, qabiliyyəti olanlar var. Lakin əksəriyyəti sənətə yararsızdır. Günah həmin aktyorlarda deyil, onlara dəstək verən şəxslərdədir. Onların oyunlarına görə, xalq işini bacaran, istedadlı gənc aktyorlara qarşı ön yarqılı münasibət göstərir. Azərbaycanda aktyorluq ”viner”lik, ”TikTok” fenomenliyi ilə başlayıb, silsilə ”komediya” filmləri ilə zirvəyə çıxır. Mövcud şəraitdə hansısa inkişafdan danışmaq, filmlərimizin, seriallarımızın başqa ölkələrdə izlənilməsi, rəğbət qazanması absurddur.

**“Qürurla deyirəm, mən, əsgər yoldaşlarım və digər müharibə iştirakçıları savaşa məsuliyyətlə hazırlaşmışdıq”**

**- Sizinlə söhbət edib, Nüsrət Kəsəmənlidən söz açmasaq, olmaz. Bəlkə bir az şablon sualdır, amma bilmək istərdim. Şeirləri hələ də dillərdə dolaşan, xalqın sevimli şairinin nəvəsi olmaq necə hissdir?**

- Şübhəsiz ki, çox gözəl duyğudur. Körpəlik illərimdən babam mənəvi atam kimi idi. Böyüdükdə isə dahi şəxsiyyət olaraq yaddaşımda silinməz izlər qoydu. Onun soyadını daşımaq, hələ adına layiq olmaq mənasına gəlmir. Miras qoyduğu soyadın məsuliyyətini anlayıram. Əminəm ki, gələcəkdəki uğurlarımla babamın ruhunu şad edəcəyəm.

**- Ailədə şeir yazmaqla məşğul olanlar varmı? Elə siz arada cızma-qara edirsinizmi?**

- Əmim Rəşad Kəsəmənli həm aktyor, həm də şair kimi istedadını isbatlayıb. Sözlərinə yazılan çoxlu sayda mahnı var. Həmçinin bir neçə il öncə şeirlər kitabı çapdan çıxdı. Sosial şəbəkələrdə öz şeirlərimi paylaşıram. Şairlik qabiliyyəti bizdə genetikdir. Təəssüf ki, şeirə maraq ötən illərdəki kimi deyil. Düşünürəm ki, bu sahədə irəliləyiş üçün ciddi addım atmaq doğru sayılmaz. Ümid edirəm, gələcəkdə mövcud vəziyyət dəyişər.

**Samirə Ərəbova**



# Gürcüstanda Xocalı anılacaq

## Rafiq Hümmətov: “Xarici dillərdə fəaliyyət göstərən mətbuat orqanlarında, nüfuzlu televiziyalarda təbliğatımızı gücləndirməliyik”

**“Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı Gürcüstanda bir neçə tədbirin keçirilməsi nəzərdə tutulub”.**

*Bu barədə ”Şərq”ə Gürcüstan Azərbaycanlılarının İnteqrasiyası Mərkəzinin icraçı direktoru Rafiq Hümmətov deyib.* Mərkəz rəhbəri bildirib ki, Marneuli rayonunda soyqırımla bağlı Azərbaycanlıların İnteqrasiyası Mərkəzinin fərqli tədbirləri olacaq: ”Gürcüstanın tanınmış ictimai-siyasi, elmi xadimlərinin iştirakı ilə tədbirlərimiz keçiriləcək. Xocalı soyqırımı 20-ci əsrdə xalqımıza qarşı baş vermiş ən böyük və qanlı qətliamdır. Şükürlər olsun ki, torpaqlarımız düşmən işğalından azad edildi. 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər əldə edən Azərbaycan Ordusu erməni quldurlarının dərsini verdi, qisasımız düşməndən alındı. Amma bununla belə boş oturmaq, soyqırımların üzərindən səthi keçmək olmaz. Əksinə, bundan sonra Qarabağda törədilən erməni vəhşiliyini dünya ictimaiyyətinin diqqətinə daha geniş ölçüdə çatdırmalıyıq. Xüsusən, ingilisdilli media qurumlarında, digər xarici dillərdə fəaliyyət göstərən mətbuat orqanlarında, nüfuzlu televiziyalarda təbliğatımızı gücləndirməliyik”.

**R.Hümmətov vurğulayıb ki, dünya ictimaiyyəti erməni vandallarının qanlı hərəkətlərindən və işğalın doğurduğu nəticələrdən xəbərdar olmalıdır:** ”Gürcüstanda bu istiqamətdə müəyyən işlər görülüb və bundan sonra da bacardığımızı edəcəyik. Bilirsiz ki, Gürcüstanda azərbaycanlılarla yanaşı, ermənilər də yaşayırlar. Buna baxmayaraq, müxtəlif tədbirlər vasitəsi ilə soyqırım həqiqətləri gürcü ictimaiyyəti arasında mümkün qədər təbliğ olunacaq. Nəzərdə tutduğumuz tədbirlər planı məhz bu məqamları özündə əks etdirəcək”.

**İsmayıl**

# Jurnalistlər giriş biletləri də görüblər

## Ermənilər turistləri cəlb etməklə Şahbulaq qalasından qazanc məqsədilə istifadə ediblər

*Azərbaycanın bir qrup media nümayəndələri işğaldan azad olunmuş ərazilərə səfər ediblər. Onlar Qarabağdakı erməni vandalizminin izləri ilə yerindəcə tanış olublar. Səfər edən jurnalistlər arasında "Azvision.az"ın əməkdaşı Anar Kəlbiyev də olub. O, öz təəsrrüatlarını "Şərq"lə bölüşüb.*

Anar Kəlbiyev açıqlamasında vurğulayıb ki, Müzəffər Ordumuz tərəfindən işğaldan azad olunmuş Ağdam və Füzuli şəhərlərində, eləcə də Xocavənd rayonunun Edilli və Tuğ kəndlərində olub. O qeyd edib ki, bu ərazilərə səfər zamanı müəyyən edilmiş yollarla hərəkət ediblər: ”Ərazidə mina və partlamamış hərbi sursatların ola biləcəyi səbəbindən biz deyilən bütün qaydalara əməl edirdik. İşğaldan azad edilən bu torpaqlara ayaq basdıqca dəhşətə gəlməmək mümkün deyildi. Çünki hər yer ermənilər tərəfindən tamamilə dağıdılıb, binalar sökülüb və bütün yaşayış evləri yerlə-yeksan edilib. Ermənilər işğaldan sonra tarixi abidələrimizin və məscidlərin hər birini mal tövləsinə çeviriblər. Bunun canlı şahidi olduq. İçəridə yığılan ot bağlamaları və kəskin peyin qoxusu ermənilərin həmin yerlərdə mal-qara saxladığını təsdiqləyirdi. Dağıtmadıqları yerləri isə qazanc məqsədi üçün istifadə ediblər. Məsələn, nümunə kimi







Şahbulaq qalasını göstərmək olar. Ermənilər 1993-cü ildə Ağdamın işğalından sonra digər tarixi abidələrimiz kimi Şahbulaq qalasını da özününküləşdirməyə çalışıblar. Qalada olduğumuz zaman bunun əyani şəkildə şahidi olduq. Belə ki, ermənilər füsunkar təbiətə malik ərazidə yerləşən Şahbulaq qalasından qazanc məqsədilə istifadə ediblər. Qalaya turistlərin qanunsuz səfərləri təşkil olunub. Bunu orada gördüyümüz giriş biletləri də təsdiqləyir”.

**Anar Kəlbiyev vurğulayıb ki, Xocavənd rayonunun Tuğ kəndində də tarixi abidələrimiz ermənilər tərəfindən tamamilə dağıdılıb:** ”Məkrli niyyətlərindən əl çəkməyən ermənilər bu kənddə də tarixi abidələrimizi saxtalaşdırmağa çalışıblar. Tuğda yerləşən qədim alban məbədlərini kilsəyə çeviriblər. Məbəd ərazisindəki daşlar sonradan düzəldilərək ora gətirilib. İşğalçılar yalançı qəbiristanlıq salmaqla, buranın guya qədim erməni kilsəsi olması görüntüsünü yaratmaq istəyiblər. Olduğumuz ərazilərdəki bütün qəbiristanlıqlar ermənilər tərəfindən tamamilə məhv edilib. Bir sözlə, hansı əraziyə getdiksə, orada erməni vandalizminin şahidi olduq”.

**Aynurə Pənahqızı**

# Sənin Allahına qurban olum, qəhrəman..!

## Vüsalı general Polad Həşimov da çox istəyirdi, ad günündə zəng etmişdi




**"Toyu noyabr ayı üçün fikirləşirdik. Amma həmin ayda şəhadət şərbəti içdi"**

Müharibənin nə olduğunu bilməyən, topdan-tüfəngdən anlamayan cocuqlar var. Ötən il birlikdə öyrəndik. Həm də zəfərin misilsiz sevincini, Qarabağa qovuşmağın fərəhini yaşadıq. Bu yolda şəhadətə ucalan oğullarımızı da unutmadıq. Hələ də ilk günkü kimi ürəyimiz yanır, yanacaq da.

Yenə bir şəhid qardaşımızdan yazıram. O, mayor Vüsal Vəliyevdir.

**İgidimizi tanıyaq.**

*Vüsal Vəliyev 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində dünyaya göz açıb. Dizə kənd tam orta məktəbində 1994-2002-ci illərdə, daha sonra isə Heydər Əliyev adına Hərbi Liseydə oxuyub. Ardınca Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.*

2012-ci ildə 3 aylıq XTQ təlimini keçib. Beyləqan, Füzuli, Ağdam, Tərtər, Qazax, Tovuz, Göygöl-Murovdağ silsiləsində xidmət keçib, mayor rütbəsinəcən yüksəlib.

O, Vətən müharibəsində Murovdağdan Şuşanın azadlığı uğrunda gedən döyüşlərədək savaşıb. Vüsal Vəliyev noyabrın 9-da Şuşada şəhadətə ucalıb. 14 dekabr 2020-ci il tarixində Şərur şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

**Qəhrəmanımız bir müddət şəhid general Polad Həşimovla birgə çalışıb. "Şərq"lə həmsöhbət olan şəhidin qardaşı Elyar İslamoğlu deyir ki, Vüsal hər zaman cənab generaldan danışırdı:** "Deyirdi ki, ordumuzda təkrar Polad Həşimov kimi general yetişməyəcək. Vüsalın sözlərinə görə, general maaşının 90 faizini hərbi hissəyə xərcləyərmiş, orda abadlıq işlərinə qədər maraqlanarmış. Əsgərlərin nəyəsə ehtiyacı olanda öz cibindən alıb, verərmiş. Vüsalla da yaxın münasibətləri var idi. Bir dəfə qardaşımın ad günündə P.Həşimov zəng etdi. Hamımız eşitdik, dedi: "Sənin kimi vətənpərvər zabit yetişdirdikləri üçün ananın, atanın əllərindən öpürəm. Səninlə fəxr edirəm". Elə Vüsal da generalla qürur duyurdu. Cənab Həşimov şəhid olanda Vüsal dəfninə gələ bilmədi. Generalın ailəsini ziyarət etməyimi, başsağlığı verməyimi istədi. Mən də P.Həşimovun evinə getdim. Ailəsini, anasının məğrurluğunu gördüm".

Şəhidin qardaşı danışır ki, müharibə başlamazdan bir həftə öncə onunla görüşüblər: "Göygölə getdik. Savaşın başlayacağını bilirdi, ona görə bizi çağırdı, bir gün yanında qaldıq. Gələcəkdən, ailəmizdən bəhs edirdi. Dolayı yolla ata-anamızı bizə əmanət etdi. Orda qayğımıza qalırdı. Hətta dedik ki, sənin toyun olacaq, çox xərc çəkmə. Amma istəyirdi hər şey yaxşı olsun. Sonradan bizimlə sonuncu dəfə görüşmək istədiyini anladıq. Müharibə zamanı da iki dəfə soraqlaşdıq. Deyirdi, yaxşıyam, narahat olmayın. Axırıncı səfər isə oktyabr ayının 1-də çox qısa söhbət etdik. Səsi tutqun, kədərli gəlirdi. Demə, tabeçiliyindəki əsgərlərdən şəhid olanlar, yaralananlar var imiş. Savaşda tabor komandiri idi. Şəhadətindən sonra komandirləri ailəmizlə əlaqə saxladılar. Vüsalın bütün tapşırıqların öhdəsindən layiqincə gəldiyini söylədilər. Bir də Vüsal əmrində olan əsgərlərə ata, qardaş kimi qayğı göstərirdi. Ailəmizin də yeganə təskinliyi onun əməlisaleh işləri, yaxşılıqlarıdır. Qardaşımı axtaranda əsgərləri ilə görüşüb, danışırdım. Hamısı Vüsal haqqında xoş sözlər deyirdi".








**Elyar bəy söyləyir ki, ötən ilin yanvar ayında Vüsala məzuniyyət götürməsini məsləhət görüblər:** "12 ildir hərbidə xidmət edir. Bu müddət ərzində həmişə səngərdə olub. Ən çətin yerlərdə - Beyləqanda, Füzulidə, Ağdamda, Tərtərdə, Qazaxda, Tovuzda çalışıb. O, Göygölə təyin olunanda sevinmişdik. Məgər Murovda xidmət edirmiş. Çünki işi ilə bağlı bizə nə isə deməzdi. Danışanda elə bilirdik ki, istirahətdən gəlib. Lakin çətinlikləri çox idi. Bir də Vüsalın 2020-nin mart ayında toyu olacaqdı. Hər şey hazır idi, musiqiçilərə qədər seçmişdik. Pandemiyaya görə baş tutmadı. Biri Bakıda, biri Naxçıvanda olmaqla iki toy edəcəkdik. İstəyirdik, Vüsalın könlü açılsın, şad günü çox gözəl keçsin. Alınmadı. Sonra toyu noyabr ayı üçün fikirləşirdik. Amma həmin ayda şəhadət şərbəti içdi. Vüsalla əlaqəmiz oktyabrın 2-dən kəsildi. Bu vəziyyəti valideynlərimizdən gizlədirdik. Onlar Vüsala qarşı çox həssas idi. Oktyabrın 13-ü atam eşitdi, infarkt keçirərək dünyasını dəyişdi. Anam isə şəhidlik xəbəri gələnə qədər itkin olduğunu bilmirdi. O, ayağından və qolundan ağır yaralansa da, taboru başsız qalmasın deyə döyüşə davam edib".



*Qeyd edək ki, mayor Vüsal Vəliyev xidmət illərində "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1928-2013) Yubiley medalı", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018) Yubiley Medalı", Azərbaycan Respublikası Müdafiə naziri, general-polkovnik Zakir Həsənov tərəfindən təqdim edilmiş medal, "Əfqanıstanda sülhməramlı missiyaya görə", "10 il Qüsursuz xidmətlərə görə" 3-cü dərəcəli medalı tədqim edilib.*

*Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən V.Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.*

**Samirə Ərəbova**

# Eşq olsun, bu millətin igid oğullarına

## Qazilərimiz Türkiyəyə əməliyyata da toy-bayramla yola düşdülər

**Hərbi ekspert:** "Bu insanlar Vətən torpağına qovuşmuş insanlardır. Kimisi bütünlüklə, kimisi də hansısa bədən əzası ilə. Belə insanların Vətən sevgisi heç vaxt azalmaz"

**Qazilərimizin üzü gülür. Sevinclidirlər. Əhval-ruhiyyələri yüksəkdir. "Qələbə" işarəsi göstərir, əl yelləyir, mahnı oxuyurlar. Bu xoş mənzərələr yaralı qazilərimiz Türkiyəyə müalicəyə göndərilən zaman, hava limanında qeydə alınıb.**

Xatırladaq ki, Vətən müharibəsinin gedişində ağır yaralanan qazilərimizdən daha 10 nəfəri - Quliyev Şahin Famiq oğlu, Hüseynov Kamil Dursunəli oğlu, Əzməmmədov Şəhriyar Şahməmməd oğlu, Vəçhiyev Çingiz Məmməd oğlu, Quliyev Həsrət Həsən oğlu, Abdullayev Xəyal Yaşar oğlu, Əliyev Qismət Nəsib oğlu, Rustəmli İlkin Elçin oğlu, Eminov Aqil Vahid oğlu, Mehtixanov Məhəmməd Biroğlan oğlu "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib. Fonddan verilən məlumata görə, ölkədəki həkimlərin rəyi nəzərə alınaraq qazilərin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. "YAŞAT" Fondu qazilərin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Eyni zamanda Fond tərəfindən hazırda Türkiyə və İsraildən həkimlərin ölkəmizə dəvət olunması istiqamətində müvafiq tədbirlər görülür. Dəvət olunan həkimlər tərəfindən qazilərin müayinə, müalicə və əməliyyatının həyata keçirilməsi nəzərdə tutulur.

Qazilərimizin çöhrəsindəki gülüşün də, yüksək əhval-ruhiyyələrinin də səbəbi məlumdur. Onlar qalib ordunun qalib əsgərləridir. Yaralıdırlar, müalicəyə ehtiyacları var, bəlkə hansısa Vətənə tək ayaqla, tək qolla dönəcək, amma əraziləri işğaldan azad edilmiş, mənfur düşmənin qovulduğu Vətənə dönəcəklər. Və Vətən bu qələbəsini həm də onlar sayəsində əldə edə bildi. Odur ki, qələbənin yaşatdığı qürur, vüqar üzlərinə yansıyır, eyni zamanda dövlətin onlara sahib çıxması, arxa-dayaq olması, xalqın da bitməyəcək sevgisi onları daha da ruhlandırır. Müalicə olunub səhhətləri normallaşmış bir şəkildə Vətənə geri dönəcəklərinə də inanırlar. Bu qürur, güvən hissidir əhval-ruhiyyələrini yüksəkdə saxlayan.



**Hərbi ekspert Ruslan İmamquliyev "Şərq"ə açıqlamasında qazilərin Vətən sevgisinin heç vaxt əskilməyəcəyini bildirdi:**

- Şəhidlərimizə Allahdan rəhmət diləyirəm, qazilərimizə can sağlığı, tezliklə sağ-salamat Vətənə qayıtmalarını arzulayıram. Qazilərimizə, şəhid ailələrinə dəstək olsa da, olmasa da, onların Vətən, dövlət sevgisi heç vaxt əskilməyəcək. Çünki bu insanlar Vətən torpağına qovuşmuş insanlardır. Kimisi bütünlüklə, kimisi də hansısa bədən əzası ilə. Belə insanların Vətən sevgisi heç vaxt azalmaz. Bizim borcumuzdur ki, onların yanında olaq. Vətən üçün canlarından keçmiş insanların qayğısına qalınırsa, əlbəttə, bu, onların əhval-ruhiyyəsinə təsir göstərəcək. Azərbaycan insanı görəndə ki, onun qayğısına qalan var, ailəsinə kömək edilir, dəstək olurlar, qürurlanır, gələcəyə inamı artır. "Yaşat" Fondu bu baxımdan çox vacib missiyanı yerinə yetirir. Şəhid ailələrinə, qazilərə dəstək olur. Bu, Azərbaycanın gələcəyi adına da müsbət addımdır. Çünki Vətən müharibəsi qələbəmizlə başa çatsa da, düşmən ayaqda olmasa da, oyaqdır. Azərbaycan ordusu da hər dəqiqə ayıq-sayıq olmalıdır. Bəlkə gələcəkdə yeni ərazilər azad etməli olacağıq. Bu baxımdan əsgərin dövlətə güvənməsi vacib amildir. Bu gün qazilərə göstərilən isti münasibət, onların ehtiyaclarının qarşılanması Vətənin keşiyində dayanan əsgərlərə də güvən verir. Şəhid ailələrinə də böyük təsəllidir.

**R.İmamquliyev qazilərin yüksək əhval-ruhiyyə ilə Türkiyəyə yola düşməsindən sevindiyini dilə gətirdi:**

- Mənim üçün çox xoşdur ki, qazilərimiz gülə-gülə yola düşürlər. Allah daim onların üzünü güldürsün. Onların sayəsində xalqımız bu gün başını dik tutur, qürurlanır. Biz bu Vətən müharibəsinədək şəhidlərimizi başı aşağı ziyarət edərdik. Çünki Vətənimiz işğal altında idi. Şəhidlərin qarşısında xəcalətli idik. Onların ruhunun narahat olduğunu bilirdik. Amma indi qürurluyuq və onların ruhlarının şad olduğundan da əminik artıq.

**Məlahət Rzayeva**

## Adam kimi adam...

**“Bu il xalqımız üçün ən əziz ildir. Xahiş edirəm, Müdafiə Nazirliyinə çatdırın, mənə imkan yaratsınlar, mart ayında, Novruz günlərində Ağdam məscidinin qarşısında əsgərlərimizə səməni halvası bişirim”**

**“Söz verirəm, mənə göstərilən sərhəddən kənara çıxmayacam. Təki mənə o imkanı yaratsınlar”**





# “İnsanı idarə edən ağıldır”

## Ağdamlı Səmayə nənə: “10 dənə diplomun olsun, ağlın yoxdursa, faydasızdır”





**“Bizi öyrədiblər ki, vicdanlı olun, haqqın yanında olun, ocağımıza hörmət qoyun, kimsəyə xanım deməklə, o xanım olmaz. Bizi el-oba xanım eləyib”**



**Vətən müharibəsində xalqımız ucalığını sübut etdi. 30 ilə yaxın doğma torpaqların həsrətini çəkən xalq Ali Baş Komandanın ”İrəli!” əmri ilə bir yumruğa döndü. Əsgərlər səngərdə, komandanlar əsgərin önündə necə döyüşə atıldısa, arxa cəbhədəkilər də - hərə bir cür ordumuza maddi-mənəvi dəstək olmağa çalışdılar. Əsgərlərimiz rəşadət göstərərək necə dastana döndülərsə, el-obanın ağsaqqal-ağbirçəyi də comərdliyi ilə seçildi.**

Təqaüdünü Silahlı Qüvvələrə bağışlayan Şəkidən Hikmət baba necə unudulmursa, ağdamlı Səmayə nənə də tarixdə qalacaq. Ağdam işğaldan azad edilən gün Vətən torpağını öpmək üçün ayağındakı ağrıları unudub əsgərlərin görüşünə gedən, ”Ayağım Ağdam torpağındadırsa, qəbrim də Ağdamda olacaq” deyən, şəfqətli ana əlləriylə bişirdiyi yeməyi əsgərlərə pay aparan, ”sizə canım qurbandı”, söyləyən, Ağdam məscidinin girişində ayaqqabılarını çıxarıb 28 il sonra o mübarək yerə Azərbaycan əsgərindən güc alıb ayaq basan Səmayə nənə! O artıq Azərbaycan anasının nəvazişkar, pak, ülvi, şəfqətli obrazına, Ana Qarabağ rəmzinə çevrilib. O qədər arzuları var ki!.. Hamısının çin olacağına inanır. Hətta əmindir. ”Mənim belə Prezidentim, belə cəsur oğullarım varsa, heç bir arzum daha gözümdə qalmayacaq”, deyir.

**Səmayə nənəyə zəng etdik. Əhvalını soruşduq. İlk sözü bilirsiniz nə oldu?**

”Xahiş edirəm, Müdafiə Nazirliynə çatdırın, mənə imkan yaratsınlar, mart ayında, Novruz günlərində Ağdam məscidinin qarşısında əsgərlərimizə səməni halvası bişirim. Onlar hamısı mənim balalarımdı. Balam kimi sevirəm hamısını. Mənə Müdafiə Nazirliyinin əliylə yol açın, arzum budur. İstəyim ürəyimdə, gözümdə qalmasın. Mənə doğma torpağımı qaytaran əsgər balalarıma mən də səməni halvası bişirim. Bayramlarını təbrik edim”.

**Söhbətə belə köprü salındı. Səmayə nənə şirin Qarabağ ləhcəsi ilə, hər sözünün, cümləsinin başında da, ”ayağında” da ”qadanız alım”, ”sizə qurban”, ”gözünə qurban” alqışlarını mirvari kimi sapa düzürdü.**

- Səmayə nənə, sizi bütün ölkə tanıyır artıq...

**- Sizə qurban olum, hamınız balalarımsız...**

- Əsgərlə görüşməyiniz, onlara yemək bişirib aparmağınız...

**- Nə vaxt istəsələr, hazıram. Nə istəyirlər, bişirərəm onlar üçün. Mənim balalarımdılar. Canım da onlara qurbandı...**

- Səmayə nənə, sizin ayaqqabılarınızı çıxarıb Ağdam məscidinə daxil olmağınız da yaddan çıxmayacaq, o vaxt da hamı bundan danışırdı...

- Ana sənə qurban, adətimiz belədi. Məscidə girəndə mümkün qədər, ayaqqabıları gərək çıxarasan. (Səmayə nənənin, ”mümkün qədər” ifadəsi diqqətimi çəkdi. Dünyanın sərt-xoş - hər üzünü görmüş nənəmiz əmr etmirdi, qayda kəsmirdi, sözü elə deməyə çalışırdı ki, kimsənin xətrinə dəyməsin, anlayışlı adam eyhamdan anlasın. Nənələrimizin ululuğu bundadır - red.) Dünyanı görə-görə gəlmişik, qızım. Gördüklərimiz nənələrimizdən, babalarımızdandı. Nə görmüşük, onu göstərmişik. Necə bizə öyüd-nəsihət veriblər, o cür davranmışıq. Valideyn tərbiyəsi olub, onların tərbiyəsini götürmüşük. Bizə öyrədiblər ki, vicdanlı olun, haqqın yanında olun, ocağımıza hörmət qoyun. Kimsəyə xanım deməklə, o xanım olmaz. Bizi el-oba xanım eləyib. Bu gün siz mənimlə maraqlanırsınız, mənim üçün ən fəxr edilesi gündür. Sizə qurban olum, siz ki mənə bu cür dəyər verirsiniz, Allah da sizi ucaltsın...

**- Səmayə nənə, niyə məhz səməni halvası bişirmək istəyirsiniz?**

- Qızım, bu bizim elin adətidi. Novruz bayramında səməni halvası bişirilər. Ağdam camaatı Novruz bayramını həmişə şən keçirib. Olan-olmazını bu əziz günlərə saxlayıb, süfrə açıb, gəlib-gedəni qonaq edib. Bizim süfrəmiz həmişə açıq, evimiz qonaqlı olub. İstəyirəm bu adətmiz itməsin. Ona görə sizdən xahiş edirəm, Müdafiə Nazirliyinə çatdırın, mənə imkan yaratsınlar gedim Ağdam məscidinin qarşısında ocaq qalayım, səməni halvası bişirim. Özü də odunla bişirəcəm. 7 kiloqram buğdanın halvasını bişirəcəm. Un, 1-2 kiloqram da qoz ləpəsi qatacam.

**- Nə qədər əsgərə çatar bu?**

- 200-300 nəfərə çatar. Bayramdan əvvəl olsun, amma. Səməni halvası gec bişəndi. Gərək səhər saat 6-da ocağa qoyasan, axşama qədər ancaq bişər. Bu il xalqımız üçün ən əziz bir ildir. Mən də əsgər balalarımızı sevindirmək istəyirəm. Qoy millətim sevinsin, düşmən də baxsın.

**- Səmayə nənə, bilirsiniz, hazırda torpaqlar minalardan təmizlənir. Ötən dəfə cənab Prezident də dedi ki... yəqin izləyirsiniz Prezidentin çıxışlarını...**

- Hamısına qulaq asıram. Hər gün dinləyirəm. Prezidentimə qurban olum. Mən ona oğlum deyirəm. O ki doğma torpağımı mənə qaytardı, Allah onu qorusun. Bilirəm, Prezident videolarımı izləyib. Leyla xanım da məni izləyir. Hörmət edirlər mənə. İnşəllah, gün gələr, Allah yol açar, Ağdamda onları öz evimdə qonaq edərəm.

**- Yəni demək istəyirdim ki, Prezident çıxışında qeyd etdi ki, bilirəm insanlar 30 ildir doğma yurdlarına həsrətdir, ancaq ərazilərə səfər etmək təhlükəlidir, tələfat olmasın deyə, bir az da səbirli olsunlar.**

*(Tez and içdi)*

- Söz verirəm, mənə göstərilən sərhəddən kənara çıxmayacam. Təki mənə o imkanı yaratsınlar. Bu sözümü ona çatdırın... Müdafiə nazirinin də xətrini istəyirəm, əsgərlərimizi də. Onlar olmasaydı, torpaqlarımız necə azad olunardı? Biz onlara kömək etməliyik, təkan verməliyik.

**- Səmayə nənə, Ağdamı nə zaman tərk etmişdiniz?**

- Qızım, 1993-ci il iyulun 23-ü Ağdam işğal olundu, mən bir gün əvvəl - iyulun 22-si çıxdım evimdən. Çıxmaq istəmirdim, zorla çıxartdılar, dedilər, qala bilməzsiniz. Evimi qoyub getmək istəmirdim. Gözəl həyat yaşayırdım. Mülkiyyətim vardı. Varlı qadın idim...

**- Eviniz Ağdamın hansı tərəfindədi?**

- Ağdam bazarına yaxın idi, evlə arası 6 dəqiqəlik yoldu. Ünvanımız, Puşkin küçəsi, ev 11. 33 sot məhləm olub. Çox gözəl bağımız vardı. Qədim ağaclar vardı bağda. Qayınatam dağdağan ağacı əkmişdi, üzüm tənəyini o ağaca çıxarmışdı. Qışın oğlan çağında tənəyin üstündən üzüm yığardıq. Bizim belə bərəkətli torpağımız var.

**(Davamı Səh.10)**

# “İnsanı idarə edən ağıldır”

## Ağdamlı Səmayə nənə: “10 dənə diplomun olsun, ağlın yoxdursa, faydasızdır”



(əvvəli səhifə 9)

**- İnşallah, yenə əkərsiniz, becərərsiniz...**

- Əlbəttə. Allah-təala imanlı insanlara güc, qüvvət verir, yol göstərir, yol açır. Qoymur insanın başı kiminsə qarşısında əyilsin. İnsanı idarə edən ağıldır. 10 dənə diplomun olsun, ağlın yoxdursa, faydasızdı. Bir də Allah insana yol verib qəlbilendirmələdir (Qarabağlılar adətən “uca” sözü əvəzinə “qəlbi” sözünü işlədirlər -red.). Yəqin sizin evin də dağıntıları qalıb. Ağdama soyqırım edib ermənilər...

**- Yəqin sizin ev də dağıdılıb...**

- Evdən əsər-əlamət yoxdu. Ağaclar da qalmayıb. Yenə tikəcəyik, inanıram, Prezidentim şərait yaradacaq, evlərimizi bərpa edib bizə qaytaracaq.

**- Neçə övladınız var?..**

- 1 qız, 1 oğlan. Oğlum gec ailə qurdu, 1 qızı var, 6-cı sinifdə oxuyur. Qızımı köçürdüm, onun da 2 oğlu var. Çətinliklə də olsa, onlara təhsil verir. Ali məktəbdə oxuyurlar. Oğlum şəkər xəstəsidi, qızımın da başında şiş var...

**- Ağdamdan çıxdıqdan sonra hara getdiniz, necə məskunlaşdınız?**

- Bərdənin Şirvanlı kəndinə gəldik. 11 il məktəb binasında qaldıq. Yoldaşım ağır xəstələndi deyə, məktəb binasından çıxdıq, bir daxalda məskunlaşdıq. Şirvanlının ayağındadı, 4 yoldan bəri, Ağdama tərəf..

**- Daxal deyirsiniz, şəraiti pisdir?**

- 30 ildir ayağım torpağın üstündədi... Döşəməsiz evdi. Ayaqlarım da ona görə ağrıyır... Bir televiziyadan çəkiliş etdilər. (Telekanalın adını açıqlamırıq - red.). Dedim bəlkə köməklik göstərərlər, evə əl gəzdirilər.

**- Deyəsən, qaldığınız ev Ağdama yaxındı deyə, əsgərlərimizin görüşünə ilk gedənlərdən biri siz oldunuz?**

- Elədi, ana qurban... İki dəfə plov bişirib apardım balalarıma. Bir dəfə də yarpaq dolması. Qatığıyla... 10 kiloqram ətin dolması idi.

**- Maşallah. Necə bişirə bilmisiniz bunu?**

- Balalarım üçün nə istəsələr bişirərəm. Qolumda güc var. İndi də bir nənə kimi onların bayramını təbrik etmək istəyirəm. İcazə versinlər, yenə gedim...

**Məlahət Rzayeva**



# 77 deputat dəstək verdi

## Gürcüstan parlamentinin Azərbaycanla dostluq qrupunun tərkibi təsdiqlənib

**X çağırış Gürcüstan parlamentinin Azərbaycanla dostluq qrupunun tərkibi təsdiqlənib.**

APA-nın yerli bürosunun xəbərinə görə, parlamentin iclasında ”Dostluq qrupları haqqında” qərar səsə qoyulub və 77 deputatın dəstəyi ilə qəbul edilib. Qərara əsasən Gürcüstan parlamentinin Azərbaycanla dostluq qrupuna yenidən parlamentin vitse-spikeri Kaxa Kuçava rəhbərlik edəcək. Dostluq qrupunda parlamentin Xarici Əlaqələr Komitəsinin sədri Nikoloz Samxaradze və Regional Siyasət və Özünüidarə Komitəsinin sədri Sozar Subari də daxil olmaqla, ümumilikdə 36 deputat təmsil olunur. Onlardan ikisi - Savalan Mirzəyev və Zaur Dağğallı azərbaycanlı deputatlardır. Qeyd edək ki, ötən il Gürcüstan parlamentinin Azərbaycanla dostluq qrupunun 62 üzvü olub.

# Savaş bitib, sabiqlərin çırpıntıları əbəsdir

## Koçaryanla Sarkisyan sadəcə olaraq daxili auditoriyanı aldatmaqla məşğuldur

**Məlum olduğu kimi, Ermənistanda prezident seçkilərinə bir neçə ay qalıb. Belə bir vaxtda düşmən ölkədəki vəziyyət getdikcə xaotik hal almaqdadır.**



Keçmiş prezidentlər Robert Köçəryanla Serj Sarkisyan uzun illərdən sonra birdənbirə “böyük siyasət”ə qayıtdıqlarını elan ediblər. Görünür, yerli cəmiyyətin onlara ehtiyacı olduğunu düşünürlər. Bir az obrazlı desək, özlərini Ağ atlı oğlana bənzədirlər...

Yaxşı, lap tutaq ki, hakimiyyətə gəldilər. Nə edə bilərlər? Necə deyərlər, qatar çoxdan getməyibmi? İş işdən keçməyibmi? Bizcə, belədir. Hər halda Köçəryan və Sarkisyan yenidən Qarabağı işğal etmək barədə düşünürlərsə, bunu hətta yuxuda görmələri də çətindir. Yuxuda görsələr də, Haroplarımız, PUA-larımız kabuslarına çevriləcək...

**Politoloq, jurnalist Anar Həsənov Ermənistandakı daxili vəziyyəti “Sherg.az”a qiymətləndirdi. Onun fikrincə, növbəti müharibənin başlanması o qədər də real deyil:**

“Rəsmi İrəvan savaş başlayanadək xeyli dərəcədə, indi isə tam asılıdır. Bu gün Qarabağda Ermənistan yoxdur. Yalnız Azərbaycan və Rusiya var.

Düşmən ölkənin iqtisadiyyatı bütünlüklə Kremldən asılıdır. Həmçinin daxili auditoriya üçün bəyanatlara, seçkiqabağı kampaniyaya imkan verən Qarabağın da Ermənistanla əlaqəsi kəsilib. Deməli, verilən müsahibələr hakimiyyətə gəlməyə hesablanıb. Əslində Paşinyan administrasiyasının müvəqqəti olduğunu və gec-tez “Qarabağ klanı”nın hakimiyyətə gələcəyini düşünürəm.

Lakin Sarkisyan, Köçəryan verdikləri bəyanatları yerinə yetirə bilərlərmi? Bax, bu, sual altındadır. Birincisi, onların yeni müharibəyə başlamaq üçün hərbi imkanları yoxdur.

Ölkədə siyasi böhran yaşanır. İkincisi, yeni savaşı Moskva da istəmir. Hər halda Rusiyanın sülhməramlı adı ilə Qarabağda olması növbəti müharibə başlananda göz yummaq, səssiz qalmaq üçün deyil.

Eyni zamanda Rusiya prezidenti Vladimir Putin müsahibələrinin birində demişdi ki, Ermənistanın yeni savaş çağırışları onun üçün ölümə bərabərdir. Deməli, kimsə hərbi əməliyyatları bərpa etmək istəsə, qarşısında şimal qonşumuzu görəcək. Söylədiyim kimi, “Qarabağ klanı”nın hakimiyyətə gəlmək üçün şansı çoxdur.

Fəqət, verilən vədlər sadəcə təbliğat ritorikasıdır. Lokal toqquşmalar istisna olmaqla, Üçüncü Qarabağ savaşının ən azı yaxın gələcəkdə başlanacağını düşünmürəm”.

**Kənan Novruzov**

Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, Qarabağa qarşı olan təcavüzkar siyasəti 30 ilə yaxın davam etdi və edir. Qarabağ bütün tarixi dövrlərdə yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi olub. Ermənistanın ölkəmizə qarşı ərazi iddiasının tarixi kökləri, işğalçı xarakteri “Böyük Ermənistan” yaratmaq xülyasının nəticəsi idi. Nəhayət, 28 illik həsrət 2020-ci ilin 10 noyabrında sona çatdı. Düşmən kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Lakin Ermənistan məğlub olana qədər xain və separatçılıq niyyətindən əl çəkmədi. Separatçı rejim bu illər ərzində tarixi-dini abidələrimizi məhv edib. 44 günlük müharibədə dövlətimizə maddi və mənəvi ziyan vurulub. Söhbət 50 milyard dollardan gedir.



# Ermənilərdən 50 milyard təzminat istəməyə haqqımız var

## Fərhad Mehdiyev: “Rusiya üçtərəfli danışıq zamanı ölkəmizə dəyən ziyanın ödənilməsinə “qapı açmır”

Bu məbləğin təzminat olaraq tələb edilməsi gündəmə gətirilməlidir. Rəsmi İrəvan son günlər revanş məsələsini aktuallaşdırır. Belə olan halda Azərbaycan tərəfinin də diqqət yetirməli olan nüanslardan biri Ermənistandan vurduqları maddi zərərin tələbidir. Bəs, məsələnin beynəlxalq müstəvidə həlli üçün nələr etməliyik?

**Politoloq Fərhad Mehdiyevin “Şərq”ə açıqlamasına görə, adətən müharibə təzminatları kapitulyasiya imzalandıqdan sonra siyasi masaya yatırılır və müzakirələr aparılır:** “Tərəflər çox vaxt maddi vəsaitin sadəcə bir qismini ödəyirlər. Maraqlıdır, elə bir müharibə olubmu ki, tərəflərdən biri vurduğu zərəri tam olaraq ödəsin? 10 noyabr tarixli atəşkəs tam yox, qismən kapitulyasiya aktı idi. Çünki Ermənistanın 3 rayondan çıxması bəyanatı kapitulyasiya aktına oxşatdı. Lakin rəsmi İrəvanın 3 rayondan çıxması o demək idi ki, onlar məğlubiyyətlərini qəbul etdilər. Hər bir halda müharibə təzminatları kapitulyasiya aktı imzalandıqdan sonra müzakirə olunur və müvafiq müqavilə imzalanır. Amma bizdə belə danışıqlar getmir”.

**F.Mehdiyevin qənaətincə, Azərbaycan tərəfi 11 yanvar 2021-ci ildə Moskvadakı üçtərəfli görüşdə təzminat məsələsini irəli sürüb. Ancaq Rusiya bu məsələdə maraqlı deyil:** “Çünki rəsmi Kreml Azərbaycana vurulan maddi ziyanın ödənilməsini heç vaxt səsləndirmir. Amma Prezident İlham Əliyev çıxışlarında, verdiyi müsahibələrdə təzminatın ödənilməsi barədə fikir bildirib. Rusiya isə üçtərəfli danışıq zamanı ölkəmizə dəyən ziyanın ödənilməsinə “qapı açmır”.

Bütün bunlar o demək deyil ki, Azərbaycan təzminatdan imtina etməlidir. Amma müharibə təzminatları beynəlxalq məhkəmələr vasitəsilə geri qaytarılmır. Bu məsələ danışıqlar masasında dilə gətirilir.

Müharibəni haqsız aparan tərəf təzminat ödəməlidir. Vətəndaşlarımız Avropanın İnsan Hüquqları üzrə Məhkəməsinə müraciət edib, haqlarını tələb edə bilərlər. Lakin dövlətimizin 50 milyard dollara görə, hansısa beynəlxalq məhkəməyə müraciət etmək imkanı məhduddur. Məsələni üç və yaxud ikitərəfli görüş zamanı irəli sürmək lazımdır.

Ermənistan haqsız yerə müharibə aparıb, bunun da sübutu 3 rayonu tərk etməkləridir. Ona görə də Azərbaycana ən azı bu 3 rayonu dağıtdıqları üçün təzminat ödəməlidirlər. Bu məsələni irəli sürməyə tam haqqımız var.

Hüquqda hansısa bir əmlakın maddi əsası, bir də prosesual yolları var. Ölkəmizin təzminat istəməyə maddi əsası var, amma prosesual yollar qeyri-müəyyəndir”.

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Mehri dəhlizinin açılması vaxtından əvvəl baş tuta bilər

*"Regionda kommunikasiyaların açılmasında Azərbaycan daha maraqlıdır. Amma bu layihələr sadəcə bizim üçün deyil, Türkiyə, Rusiya, İran və Ermənistan üçün də olduqca vacibdir"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Noyabr ayının 10-da imzalanmış üçtərəfli bəyanatdan 3 aydan çox vaxt keçib. Azərbaycan 30 il aktiv fazada davam edən və ən azı yüz il mövcud olmuş problemi qısa dövrdə həll etməklə dünya hərb və siyasət tarixində bir ilkə imza atdı. Ölkəmiz nə qədər güclü dövlət olduğunu bütün dünyaya, hər şeydən öncə isə düşmənə sübut etdi. Üçtərəfli bəyanatda əksini tapan 9 maddəlik bəndlərin icra olunması da eyni uğurla həyata keçirilməkdədir. Ümumi rəylərə əsasən, ən kritik və çətin mərhələ artıq arxada qalıb. Mürəkkəb və strateji məsələ sayılan Azərbaycanın Naxçıvanla birbaşa kommunikasiyalarının bərpası məsələsi də artıq reallaşmaq üzrədir. Sonrakı mühüm məqamlardan biri isə Türkiyə-Rusiya ortaq nəzarət mərkəzinin yaradılması idi. Mərkəzin təsis olunduğu gündən çox ötməsə də, ortaq fəaliyyətin müsbət tendensiyaları müşahidə olunmaqdadır. Hazırda Qarabağda, Rusiya sülhməramlılarının nəzarəti altında olan torpaqlarımızda erməni silahlılarının təmizlənməsi prosesi gedir. Azərbaycan tərəfi proseslərə ciddi nəzarəti həyata keçirir. Hazırda azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması istiqamətində işlər görülür. Ən optimal müddətdə bu da təmin ediləcək. Önümüzdəki mərhələdə isə Laçın şəhərinə girmədən yeni nəqliyyat dəhlizinin yaradılması istiqamətində fəaliyyətə başlanılacaq. Ümumiləşdirsək, görünən mənzərə odur ki, hər şey Azərbaycanın nəzarəti altındadır və kiçik insidentlər istisna olmaqla üçtərəfli bəyanatda əksini tapan müddəalar uğurla icra olunur.

Rusiya Prezidenti Vladimir Putin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında baş tutan telefon danışığı zamanı da ölkə rəhbərləri Rusiya-Türkiyə Birgə Mərkəzinin işindən məmnunluğunu ifadə ediblər. Liderlər 10 noyabr 2020-ci il tarixli və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatlarından irəli gələn razılaşmaların həyata keçirilməsini və regionun sosial-iqtisadi inkişafı naminə birgə səylərin koordinasiyasını müzakirə ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə-Rusiya Monitorinq Mərkəzi Qarabağdakı fəaliyyətini uğurla davam etdirir: "Atəşkəsin qorunması üçün birgə səylər göstərilməlidir. Ərdoğan Dağlıq Qarabağda nəqliyyat və kommunikasiya xətlərinin bərpası məsələsində türkiyəli və rusiyalı mütəxəssislərin azərbaycanlı həmkarları ilə birgə əməkdaşlıq edə biləcəyini də vurğulayıb.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bildirib ki, üçtərəfli bəyanatlara əsasən regiona dinc həyat qayıdır. O qeyd edib ki, konkret nəticələrə nail olmaq üçün həm Azərbaycan, həm Ermənistan, eləcə də qonşu region ölkələri vahid mövqedən çıxış etməlidirlər: "Dağlıq Qarabağda son günlərdə vəziyyət stabildir. Atəşkəsin pozulması halı qeydə alınmayıb. Rusiya sülhməramlıları 27 postda müşahidə aparır".

Bu arada Rusiya və Ermənistan XİN başçıları da Qarabağla bağlı razılaşmanın həyata keçirilməsini müzakirə ediblər. Məlumata görə, Ermənistan Xarici işlər naziri Ara Ayvazyanın qısa işgüzar səfəri zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli razılaşmalarının həyata keçirilməsinin bütün aspektləri barədə hərtərəfli müzakirə aparılıb. Vurğulanıb ki, əsas diqqət hərbi əsirlərin mübadiləsi, humanitar yardım, regionda nəqliyyat əlaqələrinin bərpa edilməsi, habelə baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupu vasitəsilə səylər kontekstində məsələlərin müzakirəsinə ayrılıb. Görüş zamanı Cənubi Qafqazdakı vəziyyət nəzərə alınmaqla regional və beynəlxalq gündəmin aktual məsələləri müzakirə edilib.

Vurğuladığımız kimi, hazırda ciddi müzakirə mövzusu olan Naxçıvanla Azərbaycan arasında quru yolun salınması bölgənin uzunmüddətli blokadasını sonlandırmaqla yanaşı, Azərbaycanla Türkiyə arasında alternativ quru yolu olacaq. Bəzi ekspertlər hesab edir ki, iqtisadi və logistik baxımdan çox böyük əhəmiyyətə malik bu dəhliz "Böyük İpək" yolunun əhəmiyyətli parçasına çevrilə, hətta Bakı-Tiflis-Qars dəmiryoluna alternativ ola bilər. Mehri dəhlizi və BTQ layihəsi isə yükdaşımalar üçün yeni imkanlar yaratmaqla bölgə dövlətlərinin iqtisadiyyatına müsbət təsir göstərəcək. Dəmiryolunun Naxçıvan sərhədinə qədər uzadılması Türkiyə üzərindən keçən böyük bir dairəvi yolun əmələ gəlməsi deməkdir. Bu da təkcə bölgədə yerləşən ölkələrin iqtisadiyyatına deyil, eyni zamanda digər dövlətlərin də iqtisadiyyatına ciddi təsir edəcək amil olacaq.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, Rusiya və Türkiyə prezidentlərinin mütəmadi telefon danışıqlarında daha çox Mehri dəhlizinin açılması müzakirə olunur.** Professorun sözlərinə görə, liderlər 11 yanvar üçtərəfli razılaşmasında nəzərdə tutulan dəhlizlə bağlı müddəanın necə və hansı müddətə həyata keçirilməsi ilə bağlı müzakirələr aparırlar: "Ermənistanda bəzi siyasi qüvvələr revanşist mövqedən çıxış edə bilərlər. Amma düşmən ölkənin dəmiryol sistemi bütünlüklə Rusiyanın əlindədir. Hətta Baş nazir Nikol Paşinyan hakimiyyətdən getsə belə, bu ideya Rusiya tərəfindən mütləq reallaşdırılacaq. Əgər Ermənistan israrında davamlı olarsa, üçtərəfli razılaşmanın şərtlərinə əməl etməkdə tərəddüd edərsə, Putinin də dediyi kimi, bu addım ermənilər üçün intihar olar. Əslində Ermənistanın prosesdə iştirakdan imtinası Moskvanı çətin vəziyyətdə qoyar və rus sülhməramlıları bölgədən avtomatik çıxmaq məcburiyyətində qalar. Azərbaycan Ordusu isə Xankəndi və ətrafına daxil olaraq bölgədə bir nəfər belə erməni silahlısının qalmasına imkan verməz. Bu reallığı Ermənistan və Rusiya çox gözəl başa düşür. Məsələ ondadır ki, Ermənistanı prosesdən çəkməkdə, anlaşmaları pozmağa sövq etməkdə Qərb ölkələri daha çox maraqlıdır. İnanmıram ki, Qərb dövlətləri nəyəsə nail olsunlar. Rusiya kommunikasiya məsələsində çox qətiyyətli, hətta aqressiv siyasət nümayiş etdirir. Ümumiyyətlə, Moskva və Ankara həm 10 noyabr, həm də 11 yanvar üçtərəfli razılaşmalarının həyata keçirilməsi üçün çox ciddi fəaliyyət sərgiləyirlər".

C.Nuriyev vurğulayıb ki, üçtərəfli format dörd tərəflə əvəzlənib: "Qarabağdakı proseslərdə Türkiyə aktiv rol oynayır. Çox güman ki, bu formata Gürcüstan və İran da qoşulacaq. "Altılıq" formatının reallaşmasına mane olmağa nə Qərb ölkələrinin, nə də Ermənistandakı revanşistlərin gücü çatacaq. Çünki bölgədə kommunikasiyaların açılması, Mehri dəhlizinin yaradılması bütün ölkələr üçün ideal variantdır. Bununla həm də Rusiya Aralıq dənizinə çıxış əldə edər. İndiki məqamda bu faktor Moskva üçün hava-su kimi lazımdır. "Şimal axını"na sanksiyalar tətbiq edilir, ABŞ Prezidenti Co Baydenlə Rusiya rəhbərinin münasibətləri kəskinləşir. Rusiya Avropa bazarlarına ancaq Azərbaycan və Türkiyə üzərindən açıla bilər. Regional layihələr İranın da maraqlarına uyğundur. Tehran fars körfəzində sərbəst olsa da, digər regionlara çıxış imkanları məhduddur. Azərbaycan da İran üzərindən Fars körfəzinə çıxmaqda maraqlıdır".

**Cümşüd Nuriyev Mehri dəhlizinin açılmasının vaxtından əvvəl baş tutacağını söyləyib:** "Prezident İlham Əliyev Horadiz-Ağbənd yolunun təməlqoyma mərasimində buna işarə etdi. Dəmir yolunun çəkilişi 2 il ərzində nəzərdə tutulmuşdusa, belə görünür ki, xəttin çəkilişinə 1 ildən artıq vaxt sərf olunmayacaq. Həm də nəzərə alaq ki, əvvəl belə bir dəmiryol xətti fəaliyyət göstərib. Əgər Azərbaycan 100 kilometrlik Şuşa yolunu rahatlıqla açırsa, bu məsafədən az olan dəmir yolunu daha qısa zamanda və asanlıqla inşa etmək mümkündür. Təbii olaraq, regionda kommunikasiyaların açılmasında Azərbaycan daha maraqlıdır. Amma bu layihələr sadəcə bizim üçün deyil, Türkiyə, Rusiya, İran və Ermənistan üçün də olduqca vacibdir".

**Siyasi şərhçi Anar İmanov da "Şərq"ə bildirib ki, Putin və Ərdoğan kimi nəhəng siyasətçilərin vacib saydığı bütün məsələlər gec-tez həll olunacaq.** Ekspertin sözlərinə görə, Ermənistan biabırçı məğlubiyyətlə barışmaq istəmədiyini hər fürsətdə desə də, arzuladığı hər hansı təxribat cəhdi elə beşikdəcə boğulacaq: "Hazırda Putinlə Ərdoğan arasında sıx əməkdaşlıq var. Ölkə liderləri gələcəyi düşünərək regionun bütün problemlərini həll etməyə çalışırlar. Həm Rusiya, həm də qardaş Türkiyə Azərbaycanı haqq mübarizəsində dəstəkləyir, ölkəmizə böyük dəstək nümayiş etdirirlər. Rusiyanın Ermənistanı dəstəkləməsi işğalçı dövlətdə faşist çalaların çiçəklənməsinə gətirib çıxardı. Njde kultu və "Soros" kimi Kremli narahat edən ciddi məqamlar üzə çıxdı. Putin Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən məmnundur. Yaxınlarda, Rusiya jurnalistləri ilə qapalı görüş keçirən Kreml rəhbəri üç məsələ ilə qürur duyduğunu açıqlayıb. Putin Qarabağ probleminin həllində imzasının olmasından fəxrlə danışıb. Yəni indiki reallıq regionun bütün ölkələrinin ürəyincədir. Bu reallığı Ermənistanda hər hansı mənfur, faşist qüvvə pozmağa, zədələməyə çalışarsa, regionun bütün ölkələri tərəfindən böyük və ciddi reaksiya ilə qarşılaşacaq. Azərbaycan Cənubi Qafqazın inkişafı üçün əlindən gələni edib və edəcək. Ölkəmiz tərəfindən kommunikasiyaların bərpası inkişafa yeni təkan verir. Yaxın perspektivdə region daha da inkişaf edəcək və bu inkişafdan bütün ölkələr bəhrələnəcək".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Məktəblərin yenidən bağlanması yanlış qərar olar

## Karantinə alınan təhsil müəssisəsində 3 nəfərin yoluxması ajiotaja səbəb olan hadisə deyil

Bakıda məktəblərin koronavirusa görə martın 1-dən distant təhsilə keçəcəyi ilə bağlı söz-söhbətlər yayılıb. Bu barədə sosial şəbəkələrdə və "Whatsapp" qruplarında bildirilir. Qeyd edilir ki, məktəblərdə müəllimlər, texniki işçilər və şagirdlər arasında yoluxmalar qeydə alınıb. Bakının Nərimanov rayonunda yerləşən 82 nömrəli tam orta məktəbin koronavirusa görə fəaliyyətinin müvəqqəti dayandırılması yayılan söz-söhbətin daha da artmasına səbəb olub.

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd edib ki, məktəblərin bağlanması ilə bağlı hazırda hər hansı bir məsələ müzakirə predmeti deyil. Məktəblərin bağlanması qərarını vermək çox yanlış olar:** "Biz konkret rəqəmlərə baxsaq görərik ki, fevral ayının 1-dən birinci və dördüncü sinfi əhatə edən 640 min şagird, fevral ayının 8-dən 5-ci və 9-cu siniflər Bakı, Abşeron, Sumqayıt istisna olmaqla tədris prosesinə cəlb ediliblər. Ondan sonrakı mərhələdə, 15 fevraldan etibarən Bakı da daxil olmaqla demək olar ki, ölkənin bütün ərazisində 5-ci, 6-cı, 7-ci, 8-ci və 9-cu siniflər məktəblərə cəlb olunublar. Hazırda ölkədə 1 milyon 400 minə yaxın şagird tədris prosesinə cəlb edilib. Kifayət qədər böyük sayda müəllim də dərs prosesində ənənəvi formada iştirak edir. Təbii ki, bu rəqəmlərin fonunda şagirdlər arasında hər hansı bir yoluxma hallarının olacağı qaçılmaz idi və gözlənilən idi. Qeyd edim ki, hazırda təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur və müvafiq qaydaların icrası ilə bağlı mütəmadi monitorinqlər aparılır".

**K.Əsədov əlavə edib ki, yalnız məktəbləri bağlamaqla heç də yoluxmanın qarşısını ala bilmərik:** "Çünki hər hansı bir yoluxma olmuş şəxslər, eyni zamanda potensial daşıyıcı olan şəxslər yalnız təhsil müəssisələrinə daxil olanda müəyyən yoxlamalara cəlb edilirlər. Hər hansısa bir əlamət aşkarlanan şəxslər dərhal tədris prosesindən kənarlaşdırılır və cəmiyyətdən tədric olunur. Əgər dərslər dayanarsa, həmin şəxslər təbii ki, cəmiyyətdə gəzəcəklər və digər şəxslərə yoluxduracaqlar. Digər tərəfdən isə onlayn qaydada tədris o qədər də effektiv deyil. Çünki bütün uşaqların heç də hamısının kompüteri, planşeti və interneti yoxdur. Həmçinin bütün fənlərin məsafədən tədrisi keyfiyyətli olmur. Hesab edirəm ki, 82 saylı orta məktəbdə baş verən yoluxma o qədər də ciddi bir rəqəm deyil. Nəzərə alsaq ki, məktəbdə 1500-dən çox şagird, eyni zamanda 129 nəfərdən çox çalışan işçi var. Üç nəfərin yoluxmaya məruz qalması təbii ki, elə də böyük bir ajiotaja səbəb olan hadisə deyil. Ümumiyyətlə isə tədris prosesinin qapanması və açılması bu prosesdə tədris keyfiyyətə çox mənfi təsir göstərir. Və bu, təhsil alanların tədris prosesinə uyğunlaşmasına çətinliklər yaradır. Birmənalı şəkildə hesab edirəm ki, bu hadisələrin qarşısını almaq üçün metrolar mütləq açılmalıdır. Xüsusi məktəblər üçün isə ictimai nəqliyyat, avtobuslar müəyyənləşməlidir ki, ondan yalnız şagirdlər istifadə etsin. Həmçinin məktəblərdə dezinfeksiya işləri mütəmadi olaraq aparılmalı və ən vacib məqam isə şagirdlər arasında məsafə gözlənilməlidir. Hesab edirəm ki, bu qaydalara riayət etməklə tədris prosesinin təşkilini tam şəkildə təmin etmək mümkündür".

**Aynurə Pənahqızı**

# Daha 193 nəfər yoluxub

## Koronavirusdan 3 nəfər vəfat edib, 201 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 193 yeni yoluxma faktı qeydə alınıb, 201 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 232 829 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 227 472 nəfər müalicə olunaraq sağalıb, 3 193 nəfər vəfat edib, aktiv xəstə sayı 2 164 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 215, ötən müddət ərzində isə ümumilikdə 2 535 825 test aparılıb.

# Göyçə gölü ətrafında yüzlərlə qanunsuz obyekt tikilib



Ermənistan Baş prokurorluğu Göyçə gölü ətrafında yüzlərlə qanunsuz tikili ilə əlaqədar cinayət işi başlayıb. Trend bu barədə erməni KİV-lərinə istinadən məlumat verir.

Qeyd olunur ki, Göyçə gölünün yerləşdiyi 1 905 metr hündürlüyədək ərazidə ictimai təyinatlı 110 obyekt qanunsuz olaraq tikilib. Obyektlərin ümumi sahəsi 110 min kvadrat metr təşkil edir.

Araşdırmalar nəticəsində məlum olub ki, obyektlər əsasən 2011-2020-ci illər arasında tikilib.

Cinayət işi ilə bağlı araşdırma aparılır.

# Sumqayıt sakinini maşın vuraraq öldürüb

Sumqayıtda 85 yaşlı kişini maşın vurub. APA-nın yerli bürosunun məlumatına görə, hadisə şəhərin Zülfü Hacıyev küçəsində qeydə alınıb.

"Chevrolet" markalı avtomobil yolu keçmək istəyən 1936-cı il təvəllüdlü Quliyev İsrafil Qara oğlunu vuraraq öldürüb.

Meyit müayinə olunmaq üçün aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı araşdırma aparılır.



# Bakıda bağçalara uşaq qəbulu dayandırılıb

## Epidemioloji vəziyyətdən asılı olaraq məsələyə baxılacaq

Məktəbəqədər təhsil müəssisələrində (uşaq bağçaları) uşaq qəbulu müvəqqəti dayandırılıb.

Bağça rəhbərləri və müəllimlərin vaksinasiyası başa çatana qədər məktəbəqədər təhsil müəssisələrində yeni uşaqlar qəbul edilməyəcək. Daha sonra epidemioloji vəziyyətdən asılı olaraq məsələyə baxılacaq.

Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsindən faktı APA-ya təsdiqləyiblər.

Xatırladaq ki, uşaq bağçaları fevralın 15-dən fəaliyyətini bərpa edib.

# Xoşbəxtliyin birinci faktoru sağlamlıqdır

## Əhalinin psixoloji maariflənməsinə fikir verilmir



Ötən il Türkiyədə aparılan araşdırma nəticəsində ölkə əhalisinin 48,2 faizinin xoşbəxt olduğu müəyyən edilib.

Türkiyənin Statistika Komitəsi yaşı 18-dən yuxarı olan şəxslər arasında apardığı araşdırma nəticəsində bu qənaətə gəlib.

Qardaş ölkənin əhalisi arasında qadınlar özlərini kişilərə nisbətən daha xoşbəxt hiss edirlər. Belə ki, 2020-ci ilin statistikasına əsasən ölkədə xoşbəxt qadınların sayı ümumi rəqəmin 53,1 faizini təşkil edib.

Araşdırmalar nəticəsində bəlli olub ki, Türkiyədə ailəli şəxslər subaylara nisbətən daha xoşbəxtdirlər.

Ölkədə özünü ən xoşbəxt hiss edənlərin yaşının 65-dən yuxarı olması təəccüblü olduğu kimi eyni zamanda maraq doğurur.

Qeyd edək ki, onları xoşbəxt edən əsas amil isə sağlamlıq olub.

Bəs, Azərbaycanda da insanların yaşayışı öyrənilib belə bir statistika açıqlansaydı nəticə necə olar, insanlar nə cavab verərdi? Ümumiyyətlə, onları xoşbəxt edən amil nə olardı?

**Mövzunu psixoloq Elnur Rüstəmovun "Şərq"ə olan açıqlaması əsasında daha dərindən öyrəndik:** "Ümumən yanaşsaq, bugünkü dünyada əsas məsələ keyfiyyətli yaşamaq məsələsidir. Yəni söhbət insanın həyatı dolu-dolu yaşamasından gedir.

Ümumiyyətlə, söhbət təkcə maddiyyatdan getmir. Burda insan faktoru öndədir. Onlarda da əsas diqqət psixi saxlamlıq və təhlükəsizlik məsələlərinə yönəlir.

Məsələ də budur. Əgər insan fiziki cəhətdən sağlamdırsa, o, xoşbəxtliyini qismən təmin etmiş olur. Amma onlar sağlamlıq baxımından xoşbəxtdirlər. Bəs, yaşamaq nöqteyi-nəzərindən sağlamdırlarmı? Burada müəyyən kriteriyalar var".

**Psixoloq Azərbaycanda cəmiyyətin psixoloji cəhətdən maariflənməsinə fikir verilmədiyini, bunun isə əslində çox mühüm faktor olduğunu vurğuladı:** "Bu gün bizim cəmiyyətdə vacib məqamlardan biri də insanların psixoloji maariflənməsindən və cəmiyyətdə psixoprofilaktik işlərin aparılmasından ibarətdir. Hansı ki, biz buna əməl etmirik.

Bu işlərin geniş aparılması insanın həyatdan məmnunluğunun artırılması, onun özünü faydalı hiss etməsinə səbəb olur. Bunlar çox vacib məqamlardır. Əgər insan öz həyatını keyfiyyətli yaşayarsa, özünü cəmiyyət üçün faydalı hesab edərsə, bu zaman fiziki problemlər də azalacaq, eyni zamanda şəxslərarası münasibət yaxşılaşacaq. Ailədaxili münaqişələr, zorakılıq və boşanma halları, intihar, eləcə də digər situasiyalar nisbətdə xeyli azalacaq. Bunun da yollarından biri qeyd etdiyim kimi maariflənmədir.

Şübhəsiz ki, insanların həyat keyfiyyəti artacaqsa, onların xoşbəxtliyi də artacaq".

**Ağarza Elçinoğlu**



# Ölkələr postpandemiya dövrünə hazırlaşır

## Azərbaycanın da konsepsiyası var, ancaq onun icrası üçün təhlillər aparılmalıdır

**“Postpandemiya dövrü üçün demək olar ki, əksər ölkələr iqtisadi konsepsiya hazırlayıb. Çünki belə bir proqram olmazsa, pandemiya dönəmində ciddi zərbələr almış ölkə iqtisadiyyatı tam sıradan çıxar. Odur ki, Azərbaycanda da pandemiyanın yaratdığı iqtisadi dağıdıcı effektləri azaltmaq üçün tədbirlər planı qəbul edilib. Bura iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyinin qorunması kimi məsələlər daxil idi”.**

**Bu sözləri “Şərq”ə açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.** Ekspertin sözlərinə görə, bu proses yalnız pandemiya dövründə deyil, strateji olaraq postpandemiya dövründə də iqtisadi sistemə dəstəyin göstərilməsi istiqamətində fəaliyyətləri və görüləcək tədbirləri əhatə edir: “Bu tədbirlər sahibkarların, xüsusən də fərqli sektorlarda pandemiyanın təsir etdiyi sahələrdə çalışanların birbaşa dəstəklənməsini təmin etmək prinsipi daşıyırdı. Eyni zamanda məqsəd olaraq postpandemiya dövründə iqtisadiyyatın diversifikasiyası, şəffaflığın gücləndirilməsi ilə bağlı tədbirlər daha prioritet olacağı gözlənilirdi. Gözlənildiyi kimi də fevralın 2-də postpandemiya dönəmin ilə yanaşı qarşıdakı 10 illik müddəti əhatə edən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı vacib iqtisadi sənəd təsdiqləndi. Bu, özündən əvvəlki sənədlərdən təkcə pandemiya şəraitində qəbul edilən və pandemiyadan sonrakı dövrü əhatə edən sənəd olmaqla deyil, eyni zamanda postmüharibə dövrünün reallıqlarını da özündə əks etdirirdi. Sosial-iqtisadi inkişafa dair olan bu Milli Prioritet özündə beş istiqamət cəmləşdirir. Bura, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit məsələləri daxildir. Göründüyü kimi, beş istiqamətdən biri işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, digər ikisi isə ümumi inkişaf parametrlərini əhatə edir”.

**Ekspert əlavə edib ki, yerdə qalan iki istiqamət isə məhz postpandemiya dövrü iqtisadi aktivliyin bərpasına və sonrakı illərdə dayanıqlı təminatına hesablanmış prioritetlərdir:** “Bura davamlı və yüksək iqtisadi artım, daxili və xarici təsirlərə dayanıqlıq daxildir. Habelə, inkişafdan hər bir vətəndaşın bəhrələnə bilməsi, yüksək və ədalətli sosial təminat, paytaxt və regionların tarazlı inkişafı və digər məsələlər də daxil edilib. Lakin burada daha vacib məsələ keçmiş təcrübələrdən dərslərin çıxarılmasıdır. Təcrübə göstərir ki, bəzi dövrlərdə iqtisadi perspektivlərlə bağlı qəbul edilmiş konsepsiyalar nəzəri cəhətdən mükəmməl bir sənəd olaraq hazırlansa da, onun tətbiqi, icrası və reallaşdırılması heç də qənaətbəxş olmur. Çünki icra proseslərində obyektiv və ya subyektiv səbəblər üzündən yekun nəticəyə nail olmaqda çətinliklər yaşanır. Buna görə də postpandemiya dövrü üçün nəzərdə tutulan strategiyanın həyata keçirilməsi zamanı bu səpgidən olan problemlərlə üzləşməmək üçün mütləq şəkildə hədəfə çatmaq üçün maneə olacaq riskləri, obyektiv və subyektiv amilləri ciddi təhlil edilməli, onların aradan qaldırılması üçün konkret addımlar atılmalıdır. Əks təqdirdə bu konsepsiya yekunda lazımi gözləntiləri verə bilməyəcək”.

**Aynurə Pənahqızı**




# Dayan, mina var !

## “Qadağalara əməl etməyənlər üçün cəza mexanizmi işə salınmalıdır”

Daxili İşlər Nazirliyi (DİN) dünən Tərtərdə minaya düşən şəxslərlə bağlı açıqlama yayıb. Tərtər rayon sakini Bəxtiyar Mahmudov və qardaşı Şəhriyar bu ilin yanvar və fevral aylarında ərzində iki dəfə işğaldan azad olunmuş ərazilərə keçdiklərinə görə polis əməkdaşları tərəfindən saxlanılıblar.

Hər iki halda onlar barəsində qanunvericiliyin tələblərinə uyğun inzibati cəza tədbirləri görülüb. Məhkəmənin qərarı ilə Şəhriyar inzibati qaydada həbs olunub, Bəxtiyar isə cərimə edilib.

**Baş verənləri “Şərq”ə dəyərləndirən Azərbaycan Yüksəliş Partiyası (AYP) başqanının 1-ci müavini, İcra Aparatının rəhbəri Bəhram İsmayılov bildirib ki, vətəndaşların işğaldan azad edilmiş bölgələrə qanunsuz səfərləri və insan itkisi ilə nəticələnən hadisələr ciddi narahatlıq yaradır:** “Vətən müharibəsinin başa çatmasından ötən 4 aydan artıq müddətdə dəfələrlə belə hadisələr baş verib. Rəsmi qurumlar hər zaman bu barədə xəbərdarlıq yayıb.

Amma nəticə dəyişməyib. Hesab edirəm ki, vətəndaşların xəbərdarlıqlara məhəl qoymaması ilə yanaşı, aidiyyəti qurumların da məsuliyyətsizliyi vurğulanmalıdır. İşğaldan azad edilmiş ərazilərə getmək o qədər də asan deyil.

Hər yerdə postlar qurulub və ciddi yoxlamalar aparılır. Vətəndaşlar bölgəyə icazəsiz gedə bilirlərsə, deməli, burada şəxsi münasibətlər də rol oynayır. Ona görə də həm vətəndaşlar arasında maarifləndirmə işi, həm də aidiyyəti qurumların fəaliyyətinə nəzarət gücləndirilməlidir.

Hətta qadağalara əməl etməyənlər üçün cəza mexanizmi işə salınmalıdır”.

**Yeganə**

# Kollecin direktoru təhsil ocağı ilə bazarı səhv saldı

## “Azərbaycanda kolleclər 6-cı barmaq funksiyasını yerinə yetirirlər, eybəcər və lazımsızdırlar”



**Bakı Humanitar Kollecinin direktoru Nərmin Qaralovanın onlayn dərs zamanı tələbə ilə kobud rəftarını əks etdirən videogörüntülər yayılıb. Sosial şəbəkələrdə paylaşılan videoda direktor sinif nümayəndəsinə “bizə şam tutan lazım” deyil kimi ifadələr söyləyir.**

Bu xoş olmayan görüntülər cəmiyyətdə qəzəb doğurub. Dünyada ən şərəfli peşə sayılan müəllimlik adına xələl gətirən bu “müəllim” tənqid olunub.

Sonra mətbuata açıqlama verərək guya, “şam tutan” sözünün qədim Yunanıstanda işlədildiyini, elektrik olmayan zamanlarda sinifdə otağı şamla işıqlandıran tələbəyə deyildiyini bildirib.

Rəzalətlə bağlı “Şərq”ə danışan təhsil eksperti Kamran Əsədov deyib ki, son zamanlar təhsilimiz xoş olmayan hadisələrlə gündəmə gəlir: “Bu da təhsil sahəsində illərdir çalışan insanların əməyinə mənfi təsir göstərir. Ölkəmizdə orta ixtisas təhsil müəssisələri ürəkaçan vəziyyətdə deyil. İndi 54 kollecdə 30 mindən çox tələbə təhsil alır. Lakin həmin müəssisələr inkişaf prosesindən tamamilə kənarda qalıb. Keyfiyyətli təhsil verə bilmirlər, nüfuzları yoxdur. Təhsil alanlar da universitetdən kəsilib, ora üz tutublar. Orta ixtisas təhsil müəssisələrində təlim-tərbiyə və tədris aşağı səviyyədədir. Həm də kolleclərin maddi-texniki bazası zəifdir. Kitabxanaları yox dərəcəsindədir, resursları köhnədir. Hesab edirəm ki, bu sektorda ciddi islahatlar keçirilməlidir. Bir də orta məktəblərdə müəllimlər imtahanlardan keçib, işə qəbul olunurlar. Kolleclərdə isə bu sistem tətbiq edilmir. İmtahan sessiyalarında da mənfi hallarla rastlaşırıq. Məsələn, tələbələrdən pul yığılır. Azərbaycanda kolleclər 6-cı barmaq funksiyasını yerinə yetirirlər. Eybəcər və lazımsızdırlar”.

**Samirə Ərəbova**

# Bu il neftin qiyməti 55 dollar civarında olacaq

## “Bu, Azərbaycan üçün ciddi, komfortlu rəqəmdir”



Dünya bazarında “Azeri Light” (CIF) markalı neftin qiyməti bahalaşıb. Belə ki, Azərbaycan neftinin 1 barelə olan qiyməti 0,55 ABŞ dolları və ya 0,86 faiz artaraq 64,78 dollar təşkil edib.

*Bəs görəsən, neftin qiymətindəki artım stabil qalacaqmı?*

**İqtisadçı-ekspert Natiq Cəfərli “Şərq”ə açıqlamasında bunun qısamüddətli dalğalanma olduğunu bildirib:** “Neftin bahalaşmasına təsir göstərən əsas amil OPEK+ (Neft İxrac Edən Ölkələr Təşkilatı) anlaşması ilə bağlıdır. Bu razılıq yanvar ayında yenidən təsdiqləndi və hasilatın artırılmasına dair qərarlar ertələndi. OPEK+ ölkələri yanvar ayında 2 milyon barel artıq neft hasil etməli idi, lakin hasilatı 500 min barelə endirdilər. Birdən-birə 2 milyon barel nefti bazara çıxartmaq istəmədilər, bu da qiymətlərə müsbət təsir etdi. Səudiyyə Ərəbistanı əlavə olaraq aprel ayına qədər 1 milyon barel neft hasilatını azaldacağı öhdəliyini götürdü. Obrazlı desək, əslində bu, süni qiymət artımıdır”.

Ekspert koronavirusa qarşı vaksinasiyanın bu sahəyə təsirindən də söz açıb: “Peyvəndləmədən sonra dünyada iqtisadi canlanmanın olacağına dair gözləntilər var. Əlavə stimul olmalıdır ki, neft daha da bahalaşsın. Çünki qapanmalar davam edir, vaksinasiyanın da uzun zaman alacağı ehtimal edilir. Sentyabr-oktyabr aylarında dünya əhalisinin böyük hissəsinin vaksinləşməsi baş verə bilər. Lakin dünyada virusun başqa ştammları dolaşır. Ona görə də pandemiyanın uzun müddət davam edəcəyi düşünülür”.

**N.Cəfərli sonda əlavə edib ki, ümumilikdə, neftin qiymətinə mənfi təsir göstərəcək amillər daha çoxdur:** “Səudiyyə Ərəbistanı aprel ayı hasilatını könüllü götürdüyü öhdəlikdən imtina edəcəyi və yenidən bazara əlavə 1 milyon barel neft çıxaracağını söyləmək mümkündür. Həmçinin İranla danışıqlar gedir. İranın nüvə anlaşmasına, altılığa qaytarılması məsələsi müzakirə edilir. Əgər İran dünya bazarına qayıtsa və əlavə neft çıxararsa, bu, qiymətlərə mənfi təsir göstərəcək.

Hazırda neft qiymətləri bu günə maksimum həddə çatıb. Bundan sonra azalmaların olması gözlənilir. 2021-ci ilin ortalama neft qiymətinin təxminən 55 dollar olacağı proqnozlaşdırılır. Bu, Azərbaycan üçün ciddi, komfortlu rəqəmdir”.

**Aygün Tahirqızı**



# Butulkanı əsərə çevirən rəssam

## Gülbəs Ayvaz: “Dindarlar və yaşlı nəsil məsələyə bir az tənqidi yanaşırlar”

Qabiliyyət hər kəsdə var. Əsas məsələ onu üzə çıxara bilməkdir. Sevindirici haldır ki, müasir dövrdə Azərbaycan gənclərinin xeyli hissəsi öz bacarıqlarını kəşf etməyi bacarırlar. Əlbəttə, bu, ən azından asudə vaxtın səmərəli keçirilməsi baxımından səciyyəvidir. Belə gənc istedadlardan biri də Gülbəs Ayvazdır. O, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alıb.

Deməli, müxtəlif rəsm əsərləri, o cümlədən portretlər, peyzajlar çəkməsi təəccüblü deyil. Təəccüblü olan isə rəsmlərin şüşə butulkalar üzərində çəkilməsidir. Başqalarının istifadəyə yararsız hesab etdikləri boş şüşə butulkalar Gülbəs Ayvazın yaradıcılıq alətidir. Yəqin siz də heyrətləndiniz, eləmi?

Onda gəlin, Gülbəs xanımın “Şərq”ə müsahibəsini oxuyaq və onu daha yaxından tanıyaq.

**- Nə vaxtdan etibarən bu hobbiniz yaranıb?**

- Bu işi 2018-ci ildə Caharşah emalatxanasında öyrəndim. Şüşə mənə yad material olduğu üçün ilk vaxtlar çətinlik çəkirdim. Elə bilirdim ki, alınmayacaq. Lakin tədricən maraq yarandı. Qrup yoldaşımın təkidi ilə başlasam da, onun dediklərini yox, öz istədiklərimi edirdim. Əl işlərim sosial şəbəkələrdə maraqla qarşılandıqca daha da



həvəslənirdim.

**- Ailənizin, ətrafdakıların reaksiyası necə oldu?**

- Doğmalarım mənə dəstək verdilər. Amma dindarlar və yaşlı nəsil nümayəndələri məsələyə bir az tənqidi yanaşırlar. Soruşurlar ki, niyə limonad yox, məhz şərab butulkası? Hər dəfə bunu izah etməkdən yorulmuşam. Özləri bilər. Kim necə istəyir, elə də düşünsün.

**- Belə əsərlərə tələbat nə qədərdir?**

- Əslində bu iş mənim üçün həm də gəlir mənbəyidir. Tənqidlərə rəğmən, sifariş ən çox məhz butulka üzərindəki rəsmlərlə bağlıdır.

**- Nə kimi tənqidlər ? Sizi nədə ittiham edirlər?**

- Tənqid edənlər rəsmdən və incəsənətdən xəbərsiz adamlardı. Sosial şəbəkələrdə paylaşdıqlarım təsadüfən rastlarına çıxır və öz ağıllarına uyğun münasibət bildirirlər. Aydındır ki, standart, qəlibləşmiş düşüncə var: içki şüşəsində rəsm çəkilirsə, burda əxlaqsızlıq təbliğ edilir. Amma mənim üzərinə rəsm çəkdiyim şüşənin içki şüşəsi olub-olmamasının heç bir önəmi yoxdur. Sadəcə, şərab şüşəsi üzərində daha rahat rəsm çəkmək olur. Məni ittiham edənlər sənəti, o cümlədən rəsmi anlamırlar.

Bugünədək heç vaxt sağlam, peşəkar tənqid eşitməmişəm. Məsələn, heç kim rəngdən yaxşı istifadə etməməyimlə bağlı bir söz deməyib. Bayaq söylədiyim ittihamları səsləndirənlər isə mənim üçün küçədə dayanıb qızlara söz atan oğlanlarla eyni cərgədədirlər. Mənasız suallara cavab verməkdən yorulmuşam.

**- Mövzuları, ornamentləri necə, nəyə uyğun seçirsiniz?**

- Adətən hansısa şəxsləri çəkirəm. Lakin əlbəttə, sifarişçinin istəklərini də nəzərə alıram. Naxışlar təsvir etməyi də bacarıram.

**- Gələcəkdə hansı mövzuları işləmək barədə düşünürsünüz?**

- Mən anı yaşayan biriyəm. Gələcəklə bağlı çox plan qurmağı sevmirəm. Odur ki, nə olacağını bilmirəm. Konkret anda nə istəyirəmsə, onu da edirəm.

**Kənan Novruzov**

# Zibilpulu 50 qəpiyə qaldırılıb?

## İcra Hakimiyyəti təkzib edir, vətəndaşlar isə narazıdır

Xırdalan şəhərində məişət tullantılarının yığılması və daşınması üçün əhalidən alınan tariflərin artırıldığı barədə məlumat paylaşılıb. Bu barədə iqtisadçı-ekspert Samir Əliyev sosial şəbəkədə məlumat verib. Onun sözlərinə görə, artıq şəhərdə adambaşına tələb edilən “zibilpulu” aylıq 50 qəpikdir: “Halbuki, Tarif Şurasının 24 noyabr 2011-ci il tarixli 5 nömrəli Qərarına əsasən, adambaşına aylıq 30 qəpik olmalıdır. Xırdalanda hər sakindən 20 qəpik artıq pul yığılır. Yığım işini “JEK”lər həyata keçirir. Onların statusu isə Azərbaycan qanunvericiliyi ilə tənzimlənmir”.

Məsələ barədə Abşeron Rayon İcra Hakimiyyəti açıqlama verib. Qurumun mətbuat xidmətinin rəhbəri Seymur Qasımbəyli bildirib ki, kiçik məişət tullantılarının yığılması və daşınması tariflərinin artırılması ilə bağlı yayılan məlumatın heç bir hüquqi əsası yoxdur: “Dövlət tərəfindən müəyyən edilmiş qiymətdir, heç bir artımdan söhbət gedə bilməz. Hazırda zibil pulu adambaşına 30 qəpikdir”.

**Baş verənləri “Şərq”ə şərh edən “Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai Birliyinin sədri Vüqar Tofiqli bildirib ki, qiymətlərin 50 qəpiyə qaldırılması təkzib edilsə də, digər bir məqam var:** “Nə üçün əhalidən məişət tullantılarına görə tələb olunan pullar nağd şəklidə yığılır? Tullantıların yığılıb daşınması üçün lazım olan vəsaitlərin toplanmasında şəffaflığın təmini sual yaradır. Mənzil Kommunal Departamenti həmin pulların yığılmasına dair hesabatı əhaliyə çatdırırmı? Maraqlıdır, yığılan vəsaitlər hara gedir?

Cənab Prezident də 2014-cü ildə yerli vergilərin yığılması ilə bağlı nağdsız ödənişin tətbiqinə dair sərəncam imzalayıb. Yəni bələdiyyələr yerli vergilərin heç birini nağd şəkildə yığa bilməz.

Bu, şəffaflığın təmin olunması, neqativ halların qarşısının alınması deməkdir”.

**Yeganə Bayramova**



# Şayiələrə uymayın!

## Adil Qeybulla hər kəsi peyvənd olunmağa çağırıb

Azərbaycan Tibb Universitetinin professoru Adil Qeybulla bu gün COVID-19 əleyhinə peyvənd olunub.

A.Qeybulla bu barədə sosial şəbəkədəki səhifəsində yazıb.

O, hər kəsi peyvənd olunmağa çağırıb:

“Bu gün Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Korpusunda qrafik üzrə - 28 gün fasilə ilə COVID-19 əleyhinə peyvənd olundum. Peyvənd tərəddüdü olanlara tövsiyəm: Şayiələrə uymayın, peyvənd olunun. Profilaktika müalicədən çox önəmlidir!”.

# Türkiyənin “Milliyyet” qəzeti uşaqların soyuqlamasından yazdı



## “Kimyəvi tərkibli dərman preparatların əvəzinə, təbii üsullarla müalicəyə üstünlük verilsə daha yaxşıdır”

**Soyuqlamaq körpələrdə ciddi problemlərə səbəb olan xəstəlikdir. Körpənin soyuqladığı müəyyən edildisə, vaxt itirmədən müalicəyə başlamaq lazımdır. Mütəxəssislər körpələrdə hərarət və üşütməyə qarşı təbii müalicə üsullarını məsləhət görürlər. Analara gərək olacaq bu məlumatları onlar üçün paylaşırıq.**

“Milliyyet”də yer alan məlumata görə, qış aylarında burun axması, öskürək şikayətlərindən ağıla ilk gələn soyuqlama olur. Körpənin soyuqlaması ciddi sağlıq problemlərinə səbəb ola biləcəyindən təcili müalicə almaq şərtdir. Soyuqlama yuxarı tənəffüs yollarını təsiri altına alan infeksion xəstəlikdir. Anadan körpəyə ötürülən antikorlar ilk 6 ayda körpəni soyuqlama riskindən qoruyur. Yəni körpə 6 aylıq sığortalanmış olur. Amma buna baxmayaraq havada və ya hər hansı səthlərdəki viruslar tənəffüs yolları və ya qida borusu vasitəsilə körpənin orqanizminə düşə bilər. Əgər körpənin soyuqladığı təsdiqlənibsə, xəstəliyin tez və ağrısız keçməsi üçün həkimlər məsləhət görür ki, körpə - əgər südəmərdirsə, süd verilməsi aralıqları qısaldılmalı, ana körpəni daha tez-tez, qısa aralıqlarla əmizdirməlidir. Körpənin burnunun içi burun aspiratorundan istifadə edilməklə təmizlənməli, həm də burnun nəm qalmasına çalışılmalı (axıntı qurumasın və xaric olunsun deyə), bol maye içməsi təmin edilməli və körpələr çox qalın, isti geyindirilməməlidir. Xəstəliyin müalicəsində həkimə nə zaman müraciət etmək də önəmlidir. Körpə narahatlığını dillə söyləyə bilmədiyindən, onun əvəzinə valideyni düşünməlidir. Valideyn körpədə rahatsızlıq olduğunu anladığı zaman həkimə müraciət etməlidir. Həkim ən doğru müalicə üsulunu məsləhət görəcək, bu da körpənin qısa zamanda sağalmasına, rahatsızlıqların aradan qalxmasına kömək edəcək. Soyuqlama körpələrdə burun axması, hərarətin qalxması, öskürək, səbir gətirmək, burun tutulması və yorğunluq, halsızlıq kimi əlamətlərlə müşayiət olunur. Əgər körpə adətən çox hərəkətli, dinamikdirsə, qidalanması normaldırsa və ana bu hallarda fərqlilik hiss edirsə - körpə oyunlara meyilli deyil, iştahsızdır, yeməyi rədd edir və sairə, demək, körpənin sağlamlığında nəsə problem var. Körpəyə həkim tərəfindən soyuqlama diaqnozu qoyulubsa, kimyəvi tərkibli dərman preparatların əvəzinə, təbii üsullarla müalicəyə üstünlük verilsə daha yaxşıdır. Təbii üsullar soyuqlamanın aradan qaldırılmasında daha effektli ola bilər. Məsələn, nanəli-limonlu, zəncəfilli-ballı çay, ihlamur (cökə çiçəyi - rus dilndə “lipa”. Cökə çiçəyinin çayı hərarətsalıcı və öskürəyə qarşıdır - red.) və darçınlı ballı süd soyuqlamaya qarşı istifadə edilir. Körpələrdə hərarəti aşağı salmaq və öskürəyi kəsmək üçün soğan suyuna bir az bal qatılaraq gündə 2 dəfə körpəyə içirdilir. Bunlarla soyuqlamanın əlamətləri qısa zamanda aradan qaldırıla bilər. Nanə-limonbal-zəncəfil qarışıqlı çay udlaq yolunu tez açacaq, nəticədə öskürək də qısa zamanda keçəcək. Bol vitaminli təbii qidalar, otlar, ədviyyat və meyvələr həm də körpənin orqanizminin möhkəmlənməsinə yardımçı olacaq.

> “Hərarəti aşağı salmaq və öskürəyi kəsmək üçün soğan suyuna bir az bal qatılaraq gündə 2 dəfə körpəyə içirdilir”

**Məlahət**

# Xəstə ata həbs olunub

## O, 9 il uşaqlarını əzab verərək zirzəmidə saxlayıb

*(əvvəli səhifə 16)*





Bir gün uzun saçlı, saqqallı və köhnə paltar geyinmiş 20 yaşlarında bir gənc Hollandiyanın Ruinerwold şəhərində bir kafeyə gəlib. Qəribə hərəkətləri ilə insanların diqqətini çəkən gənc fermadan qaçdığını və son 9 ildə ilk dəfə çölə çıxdığını deyib. O, insanlara özü ilə yanaşı qardaşlarının onların köməyə ehtiyacı olduğunu söyləyib. Kafenin əməkdaşı dərhal bu barədə polisə məlumat verib. Polislər gecə yarısı fermaya basqın ediblər. Onlar yataq otağında bir şkafın arxasından zirzəmiyə gedən gizli bir pilləkən tapıblar. Polislər aşağıya enəndə çox təəccüblənibloər. Polislər həmin yerdə beyin qanaması nəticəsində insult keçirən ata Gerrit Jan van D.-ı, evin zirzəmisindən isə dörd yetkin uşaq tapıblar. Onların 18-25 yaş arasında olmaları təsbit edilib. Dünya ilə çoxdan əlaqəsi olmayan ailə birdən-birə bütün beynəlxalq mediada işıqlandırılıb. Yerli media ailənin illərdir zirzəmidə dəhşətli əzablar gördüyünü yazıb. Tərəvəz bağçası və bir keçi sayəsində həyata yapışan uşaqların anasının fermaya köçməmişdən əvvəl öldüyü bildirilib. Heç vaxt məktəbə getməyən uşaqlar dünyada başqa insanların yaşadıqlarına dair heç bir məlumata sahib olmayıblar.

58 yaşlı Josef B. polis tərəfindən dərhal saxlanılıb. Bir neçə gün sonra aparılan araşdırmalar nəticəsində məlum olub ki, Josef B. və ailənin digər üzvlərinin Mun təriqətinin üzvləridir. Yerli mətbuat Josef B. və onun atasının Belçikanın Hasselt şəhərində məzhəbə bağlı İcma Kilsəsinin fəal üzvlərindən biri olduğunu bildirib. Hollandiyalı prokurorlar ata Gerrit Jan van D. ruhi sağlamlığının "çox pis" olduğunu və özünü kifayət qədər müdafiə edə bilmədiyi üçün sərbəst buraxılmalı olduğunu bildiriblər. Hollandiyanın Assen Məhkəməsi atanın 4 mart tarixində sərbəst buraxılıb-buraxılmayacağına dair qərar verəcək. 9 övladdan dördü ataları Josef B.-nə qarşı məhkəmənin davam etməsini istəyir. Onlar atalarının doğulduqları andan bəri yaşadıqları izaholunmaz ağrıya görə cəzalandırılmasını tələb edirlər. Uşaqlar 2004-cü ildə analarının ölümü səbəbi ilə atalarının onları günahlandırdığını söyləyibloər. Onlar cinsi istismara və beyin yuyulmasına məruz qaldıqlarını da vurğulayıblar. Digər 5 qardaşın atalarının üzərində kontrolu olduğunu bildirən uşaqlar onların da təhlükəli olduğunu qeyd ediblər.

Polislər hollandiyalı fermerin evinin zirzəmisindən çox miqdarda nağd pul tapıblar. Hollandiya mediası üç il əvvəl beyin qanaması keçirən ata Dorsten tərəfindən sosial mediada paylaşılan Dorstenin əl istehsalı bir avarçəkmə maşını ilə idman oynadığını göstərən şəkillər paylaşıb. Digər bir şəkildə isə o Tai Chi döyüş idman növü ilə məşğul olur. Medianın yayımladığı ən maraqlı görüntülərdən birində isə Dorsten hovuzda üzür.

*Qeyd edək ki, məhkəmə tərəfindən Josef B. qarşı cinsi təcavüz, məcburi həbs və azadlığın məhdudlaşdırılması ittihamı ilə cinayət işi açılıb.*

**Aynurə Pənahqızı**

# Soyuqlar kəsir

## İnsanlar sağ qalmaq uğrunda mücadilə verir

*(əvvəli səhifə 16)*

Şiddətli qar fırtınaları və sərt hava şəraiti günlərdi ki, 100 milyondan çox amerikalıya mənfi təsir göstərməyə davam edir. Texasın bəzi bölgələrinə hələ də qar yağmağa davam edir. Bölgədəki 13 milyon insanın isə su əldə etmək imkanı yoxdur. Dövlətin hazırda qida və su ehtiyatları da tükənməkdədir. Yeddi milyon əhali ümidsiz şəkildə Texasda isti yemək əldə etmək üçün 4 saat növbədə durmalıdır.



Çətin şərtlərdə həyatda qalmağa çalışan insanların vəziyyəti dünya mediasının da bir nömrəli gündəminə çevrilib. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısını Alma Mərkəzi istehlak üçün nəzərdə tutulan bütün suların qaynadılmalı olduğunu bildirib. Hyuston şəhərinin prezidenti Silvester Turner elektrik enerjisi və kran suyunu qaynatmaq üçün imkanları olmayan şəxslərə imkan daxilində qablaşdırılmış su almağa çağırıb. Harris əyalətində insanlar susuz qalmaq və ya hər hansısa bir xəstəliklə üzləşməmək arasında çarəsiz bir seçim etmək məcburiyyətində qalıblar. Arlington, Austin, Hyuston və San-Antonio şəhərlərində 263 min nəfər içməli su əldə etmək üçün çalışır. Havaların dondurucu olması da əksər evlərdə su borularının partlamasına səbəb olub. Bu səbəbdən də Hyustonda şəhər sakinləri vedrə-vedrə su doldurara evə aparır.

**Aynurə Pənahqızı**

# Xalqımızın qəhrəmanlıq eposu "Koroğlu" Azercell-in Audiokitab layihəsində!

## Lider mobil operatorun təşəbbüsü və dəstəyilə ən sevilən folklor incilərimizdən biri bloqer Azər Qəribin ifasında artıq Bookmate tətbiqində




**"Azercell Telekom" MMC xalqımızın mədəni irsinin qorunub saxlanması, istər yazılı, istərsə də şifahi xalq ədəbiyyatı nümunələrinin daha müasir və dinamik şəkildə oxuculara çatdırılması sahəsində növbəti təşəbbüslə çıxış edib.** Bilavasitə şirkətin təşəbbüsü ilə ərsəyə gələn son layihə çərçivəsində isə xalqımızın vətənpərvərlik və qəhrəmanlıq tarixini təcəssüm etdirən "Koroğlu" dastanı fərqli və rəqəmsal formatda kitab həvəskarlarının ixtiyarına verilib. Epos səsli formatda işlənib-hazırlanmış Azercell-in "Bookmate" mobil tətbiqinin "Audiobook" ("Audio Kitab") bölümünə yüklənəcək. Belə ki, "Koroğlu" dastanının 10 qolu tanınmış jurnalist və səyyah-bloqer Azər Qəribin ifasında səsləndirilib, eposun bəzi bəndləri isə gənc bəstəkar və folk-rok ifaçısı Vüsal Rzasoy tərəfindən eksklüziv musiqi nömrələri ilə ifa olunub. Bundan əlavə, bədii illüstrasiyalarla müşayiət edilən "Koroğlu" audiokitabı üçün hazırlanan təsvirlər üzərində gənc rəssamlar Bəxtiyar Zaidzadə və Zəhra Əzimzadə çalışıb.

Nəzərinizə çatdıraq ki, 21 fevral tarixində bloqer Azər Qəribin rəsmi Facebook səhifəsində layihənin eksklüziv təqdimatı baş tutacaq. Layihəni, həmçinin, Azercell-in rəsmi Youtube kanalından da izləmək mümkün olacaq.

Qeyd edək ki, Azercell "Bookmate" mobil tətbiqinin Azərbaycandakı rəsmi tərəfdaşıdır. "Bookmate" məkandan və istifadə edilən cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə müxtəlif janrlarda 4 milyondan çox elektron və audio kitabı özündə cəmləşdirən zəngin elektron kitabxanadır. Azercell bu əməkdaşlığın ilk ilindən mobil kitabxananın Azərbaycan dilində olan kontentini zənginləşdirməyi hədəfləyib. İndiyədək Azercell-in təşəbbüsü ilə onlarla əsər elektron və audio kitab versiyada tətbiqə yüklənib. Dahi şair-mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubiley ilində şairin məşhur qəzəl və rübailəri üç dildə səsləndirilərək "Bookmate" proqramının "Audio Kitab" bölməsinə yüklənilmişdi.

Azercell-in təqdimatında "Koroğlu" audiokitab layihəsi və digər faydalı materiallardan zövq almaq üçün https://www.azercell.com/az/personal/digital-solutions/bookmate.html səhifəsi vasitəsilə Bookmate tətbiqinə qoşulma qaydaları barədə ətraflı məlumat əldə etmək olar.

Layihəmizin davamını izləyin!

# İntellektualların "Nar" kuboku uğrunda mübarizəsi başlayır



**"Nar"ın baş sponsorluğu ilə ölkənin ən maraqlı və baxımlı intellektual yarışı olan "Breyn Rinq"in 17-ci mövsümü başlayır.** Bilik yarışının builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda olimpiya sistemi üzrə mübarizə aparacaq. Yarışda iştirak edəcək komandalar region, universitet və sponsor komandaları olmaqla 3 diviziona bölünüb. Hər divizion üzrə qalib gələcək komandalar finalda "Nar" tərəfindən təsis edilmiş "Nar" kuboku uğrunda mübarizə aparacaqlar. Qeyd edək ki, builki mövsümdə ilk dəfə "Nar"ın dəstəklədiyi "Qarabağ" komandası da mübarizəyə qoşulacaq. Komandanın üzvləri işğaldan azad edilmiş bölgələrin intellektualları olacaq. Fevralın 19-dan start götürəcək yarış hər həftənin cümə günü saat 22:00-da İctimai Televiziyada yayımlanacaq.

Qeyd edək ki, ölkədə karantin rejiminin davam etməsi ilə əlaqədar olaraq yarış pandemiya şərtlərinə uyğun keçiriləcək. Belə ki, hər buraxılışda tamaşaçıların iştirakı olmadan sadəcə iki komanda mübarizə aparacaq. Bundan başqa, yarışda iştirak edən hər komanda və heyət üzvü çəkilişdən öncə "COVİD-19" testindən keçməlidir.

Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə hər il olduğu kimi bu il də "Nar"ın "Twitter" səhifəsində yarış keçiriləcək. Hər zaman gənclərin intellektual inkişafına xüsusi önəm verən "Nar", artıq 9 ildir ki, "Breyn Rinq" intellektual yarışının baş sponsorudur. "Nar"ın digər layihələri ilə burada tanış olmaq olar.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 322

## Elgiz Əkbər orqanlarını bağışlayıb



**Aparıcı Elgiz Əkbər orqanlarını bağışlayıb.**

O, bu haqda aparıcısı olduğu proqramda danışıb. O bildirib ki, vəsiyyətini rəsmiləşdirib:

“Rəsmi olaraq orqanlarımı vəsiyyət etmişəm. Öləndə orqanlarımı kimə lazımdır versinlər. Kimə nə lazımdır halal xoşu olsun. Bunu edən ilk insanlardan olmuşam. Əgər öləndən sonra ürəyin və ya başqa orqanın kiməsə həyat verəcəksə, necə gözəl iş görmüş olacaqsan”.

## Şahzadə Harri bütün fəxri adları itirəcək



### Bu barədə Bukingem Sarayı məlumat yayıb

**Britaniya şahzadəsi Harri bütün fəxri adları itirəcək.** Bu barədə Bukingem Sarayı məlumat yayıb. Bildirilib ki, şahzadə Harri və həyat yoldaşı Meqan kral ailəsinin üzvü kimi öz vəzifələrinə qayıtmayacaq və Harri fəxri hərbi adlarından imtina edəcək. (apa)

*Xatırladaq ki, 2020-ci ilin əvvəlində Harri və Meqan krallıq həyatından uzaqlaşıb və razılaşdırılıb ki, bir ildən sonra vəziyyət gözdən keçiriləcək.*

*Cütlük indi Kaliforniyada yaşayır və ikinci övladlarının dünyaya gəlişini gözləyir.*

## Bir paylaşımının qiyməti 1 milyon 250 min dollardır



**“Yuventus”un oyunçusu Kriştiano Ronaldo futboldan kənarda da yüksək məbləğdə pullar qazanır.**

Sosial mediada ən çox izləyicisi olan portuqaliyalı hücumçunun “İnstaqram”dakı bir paylaşımının qiyməti təqribən 1 milyon 250 min dollardır.

*Qeyd edək ki, 36 yaşlı oyunçunun sosial media hesablarında 500 milyon (“İnstaqram”da 261 milyon, “Feysbuk”a 148 milyon, “Tvitter”də 91 milyon) izləyicisi var.*

## Boğazını kəsməklə təhdid edirlər



### Gənc müğənni onu qorxudan şəxsi məhkəməyə verib

**Gənc müğənni Billi Ayliş Los-Ancelesdəki evinə gələrək onu qorxudan şəxsi məhkəməyə verib.**

Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, ifaçı avqustdan evinin qarşısında çadır quraraq orada qalır.

Con Hörl adlı şəxs Billini dəfələrlə təhdid edib. Onun boğazını kəsəcəyini, hətta öldürəcəyini deyib.

Məhkəmə avqustan davam etsə də, hələ ki Hörlın həbs edilməsi ilə bağlı qərar qəbul edilməyib.

## “Ölümə uşaqlıqdan marağım var”



### Aleyna meyitin yarılmasını da izləyib

**Türkiyəli müğənni Aleyna Tilki instaqram hesabında izləyiciləri ilə söhbət edib.**

Axşam.az bildirir ki, 20 yaşlı ifaçı pərəstişkarlarından birinin “Ölüm haqqında nə düşünürsünüz” sualına belə cavab verib: “Ölümə uşaqlıqdan marağım var. Mənim oynadığım park qəbristanlığın içində, evim isə morqun qarşısında idi. Əvvəl nənəmin xəstəxanası olduğu üçün orada çox vaxt keçirirdim. Meyitin yarılmasını da izləmişəm. Qəbristanlıqlarda 6-cı hisslərimlə bağlı təcrübələr də aparmışam. Ölümü qəbul edirəm, mənə ilham verir”.



# Xəstə ata həbs olunub

### O, 9 il uşaqlarını əzab verərək zirzəmidə saxlayıb









Doqquz ildir ki, fermanın zirzəmisində əzab görən ailənin fotoları bütün dünyanı şoka salıb. “Şərq” xarici mətbuata istinadən xəbər verir ki, hadisə Hollandiyada yaşanıb.

Ölkə prokurorluğu illərlə övladlarını zirzəmidə saxlayan xəstə ata Josef B.-nı həbs edib. O, 9 il əvvəl Drenthe bölgəsinin Ruinerwold kəndi yaxınlığında boş bir təsərrüfat sahəsini icarəyə götürüb. Bura meşə ilə əhatə olunduğuna görə, qocanın ətrafdakılarla əlaqəsi olmayıb. Ətrafdakı insanlar illərdir ki, Josef B.-nın iti və keçisi ilə yaşadığını zənn edib. Lakin 14 oktyabr 2019-cu il tarixində baş verən hadisə zamanı insanlar qocanın saxladığı böyük sirri aşkarlayıblar.

(ardı səhifə 15)

# Soyuqlar kəsir

### İnsanlar sağ qalmaq uğrunda mücadilə verir



ABŞ-ın cənub ştatı Texasda insanlar soyuq havada yaşamaq uğrunda mübarizə aparırlar. “Şərq” xarici mətbuata istinadən xəbər verir ki, son illərin ən sərt qışı ilə qarşılaşan Texasda insanlar ölüm və qalım uğrunda savaşırlar.

Mağazalarda artıq qida tamamilə tükənib, marketlərdə rəflər boşalıb. Hətta 7 milyon insan içmək üçün su tapa bilmir. Onlara artıq “kran suyunu qaynatmaq” əmri də verilib. Milyonlarla insan işıqsız və susuz qalıb. Böhranın beşinci günündə çıxılmaz vəziyyətdə qalan ailələr mənfi 18 dərəcə şaxtada yaşamaq üçün mübarizə aparırlar. Milyonlarla insan elektrik və su olmadan dondurucu soyuqlarda sağ qalmağa çalışır. Cənubdakı dörd əyalətdə artıq 30-dan çox insan ölüb.

(ardı səhifə 15)



## 19 milyon 300 min izləyicisi var

### Hande sosial şəbəkədə meydan sulayır

**İnstaqramda izləyici sayı sürətlə artan Hande Erçel həmkarları arasında böyük fərq yaradıb.**

Axşam.az bildirir ki, hazırda aktrisanın sosial şəbəkədə 19 milyon 300 min izləyicisi var. Hande izləyici sayının çoxluğu ilə aktyor Burak Özçiviti geridə qoyub.

*Ən çox izləyicisi olan məşhurlar sırasında 33 milyon 400 minlə Nusret birinci, 20 milyon 800 min izləyici ilə aşpaz CZN Burak ikinci yerdə qərarlaşıb.*